# RƏQƏMSAL İNKİŞAF ŞURASININ İLK İCLASI KEÇİRİLİB

Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının iclasında Birinci vitse-prezident Mehriban Əliyeva çıxış edib. Mehriban xanım Əliyeva bildirib ki, cari ilin fevral ayında Prezident İlham Əliyevin sədrliyi ilə ölkəmizin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunmuş müşavirə keçirilib və verilən tapşırıqlara əsasən, rəqəmsal inkişaf üzrə Fəaliyyət Planı təsdiqlənib.

SƏHİFƏ 3-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

4 İYUL ŞƏNBƏ 2026 № 24 (4275) Qiyməti - 60 qəpik www.kaspi.az



## HƏDƏF REGİONUN TEXNOLOGİYA MƏRKƏZİ OLMAQDIR

Azərbaycan regionun texnologiya mərkəzinə çevrilməyi hədəfləyir. Ekspertlər bu istiqamətdə ciddi addımların atılmalı olduğu qənaətindədirlər. Azərbaycanın regionun texnologiya mərkəzlərindən birinə çevrilməsi nə dərəcədə realdır?

SƏHİFƏ 4-də




## BANK KREDİTLƏRİ İLƏ BAĞLI YENİLİK

"Açıq bankçılıq" sisteminin tətbiqi bankların müştərilərə daha fərdiləşdirilmiş kredit təklifləri verməsinə imkan yaradacaq. Yeni sistemdə onların gəlir və ödəniş qabiliyyəti daha dəqiq qiymətləndiriləcək.

SƏHİFƏ 6-da



## VİLLALARIN KİRAYƏSİNDƏ REKORD ARTIM

2019-cu ildən etibarən Bakı və ətraf qəsəbələrdə kirayə mənzillərin qiymətində mütəmadi artım müşahidə olunur. Tələbin artması qiymətlərə birbaşa təsir göstərir və bu tendensiya 2026-cı ildə də davam edir.

SƏHİFƏ 9-da

### Aİ RƏSMİSİNİN SƏFƏRİNİN MƏQSƏDİNİ AYDIN İFADƏ EDƏN MESAJ



# ENERJİ, SÜLH VƏ STRATEJİ TƏRƏFDAŞLIQ

Aİ üçün Azərbaycan ilk növbədə mühüm enerji təchizatçısı və etibarlı tərəfdaş statusuna malikdir. Brüssel Bakı ilə nəqliyyat, iqtisadi dayanıqlılıq və regional sabitlik sahələrində də əməkdaşlığı dərinləşdirmək istəyir.

### ƏMƏKDAŞLIĞIN ƏSAS GÜNDƏLİYİ

Aİ-Azərbaycan əməkdaşlığının gündəliyində bağlantılar, bərpa olunan enerji, regional təhlükəsizlik məsələləri kimi digər mühüm strateji sahələr də önəmli yer tutmaqdadır. Prezident İlham Əliyevin Ursula Fon der Lyayenlə görüşündə bu sahələr də xüsusi diqqət mərkəzində olub.

### AZƏRBAYCANIN Aİ ÜÇÜN ARTAN ROLU

Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin də Bakıda səsləndirdiyi bəyanatlar xüsusi diqqət çəkir. Məqsədin tərəfdaşlığı dərinləşdirmək olduğunu bildirən Lyayen Azərbaycanın Aİ üçün önəmli aktor olduğunu bir daha təsdiqləmiş oldu.

SƏHİFƏ 2-də

Əsas mövzu müdafiə xərclərinin artırılması olacaq

## QLOBAL TƏHLÜKƏSİZLİYƏ YÖN VERƏCƏK ZİRVƏ

NATO-ya üzv ölkələrin liderləri Ankarada bir araya gələcəklər. Sammit Alyansın gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi və müdafiə potensialının artırılması baxımından mühüm əhəmiyyət daşıyır.



Zirvə qlobal təhlükəsizlik mühitinin sürətlə dəyişdiyi, Rusiya-Ukrayna müharibəsinin davam etdiyi, Yaxın Şərqdə gərginliyin artdığı və Avropa təhlükəsizlik sisteminin yeni çağırışlarla üzləşdiyi bir dövrdə təşkil edilir.

SƏHİFƏ 5-də



## DÖVLƏT-VƏTƏNDAŞ ÜNSİYYƏTİNDƏ YENİ MODEL

Əsas məqsəd vətəndaş müraciətlərinin təqdim olunması və idarə edilməsi prosesinin daha təkmil, rəqəmsal əsasda qurulmasıdır. Bu çərçivədə müraciətlərin Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim olunması nəzərdə tutulur.

SƏHİFƏ 7-də




## ƏNƏNƏVİ SU SAYĞACLARI TARİXƏ QOVUŞUR

Azərbaycanda su təchizatının rəqəmsallaşdırılması mərhələsi başlayır. Yeni nəsil sayğaclar və SCADA sistemi vasitəsilə su sərfiyyatına nəzarətin gücləndirilməsi, qəzalara operativ müdaxilə və itkilərin minimuma endirilməsi hədəflənir.

SƏHİFƏ 13-də



## XƏSTƏXANALARDAKI NÖVBƏLƏRİ NECƏ TƏNZİMLƏMƏLİ?

İcbari tibbi sığortanın tətbiqinə başlanıldıqdan sonra dövlət xəstəxanalarında həkim qəbulu üçün növbələr müşahidə edilir. Hətta səhər tezdən növbəyə duran vətəndaşlar da gün ərzində həkim qəbuluna düşə bilmirlər.

SƏHİFƏ 8-də



BTC-nin operatorluğu SOCAR-a təhvil verilib

SƏHİFƏ 10-da



Mövsümi meyvələri bahalaşdıran səbəblər

SƏHİFƏ 11-də



Süd emalı sənayesində yeni mərhələ

SƏHİFƏ 12-də



Cibi yandıran ekzotik dəb

SƏHİFƏ 14-də



Keçmişlə gələcəyin yanaşı yaşadığı şəhər

SƏHİFƏ 15-də

# ENERJİ, SÜLH VƏ STRATEJİ TƏRƏFDAŞLIQ

Avropa İttifaqı üçün Azərbaycan ilk növbədə mühüm enerji təchizatçısı və etibarlı tərəfdaş statusuna malikdir. Brüssel Bakı ilə nəqliyyat, iqtisadi dayanıqlılıq və regional sabitlik sahələrində də əməkdaşlığı dərinləşdirmək istəyir.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen bir neçə illik fasilədən sonra yenidən Azərbaycana səfər etdi. Cənubi Qafqaz ziyarətinin ilk dayanacağının Bakı olması bu səfərin Brüssel üçün nə dərəcədə əhəmiyyətli olduğunun göstəricisi kimi dəyərləndirilir. Səfər çərçivəsində Ursula Fon der Lyayen Prezident İlham Əliyevlə öncə təkbətək, daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşüblər. Aparılan müzakirələrin detalları və gələcək əməkdaşlıq perspektivlərinin konturları isə tərəflərin mətbuata birgə bəyanatında açıqlanıb.

### "BİZ AVROPA KOMİSSİYASI İLƏ MÜNASİBƏTLƏRİ YÜKSƏK DƏYƏRLƏNDİRİRİK"

Prezident İlham Əliyev bildirib ki, Avropa Komissiyası ilə Azərbaycan arasında münasibətlər çox mühüm mərhələdədir. Əməkdaşlığı genişləndirmək və tərəfdaşlığı gücləndirmək məqsədilə hər iki tərəfin qarşılıqlı iradəsini əks etdirən münasibətlərdə görünməmiş dinamika müşahidə olunur: "Biz Avropa Komissiyası ilə münasibətləri yüksək dəyərləndiririk".

Bu əməkdaşlığı genişləndirmək və daha böyük müstəviyə çıxartmaq üçün ciddi əsaslar da var. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Aİ Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ölkəmizin xarici ticarət dövriyyəsinin 40 faizindən çoxu məhz İttifaq ölkələrinin payına düşür. Qarşılıqlı olaraq Azərbaycan da Aİ üçün Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Regionda ticarətin təxminən 70 faizi Azərbaycanla aparılır.

### ETİBARLI ENERJİ TƏCHİZATÇISI

Təbii ki, Aİ üçün Azərbaycan ilk növbədə mühüm enerji təchizatçısı və etibarlı tərəfdaş statusuna malikdir. Dövlət başçısının da bəyan etdiyi kimi, tərəflər arasında Strateji Tərəfdaşlıq Haqqında Anlaşma Memorandumu imzalandıqdan sonra Aİ-nin üzv dövlətlərinə Azərbaycanın təbii qaz ixracı təxminən 65 faiz artıb. "Bu gün qaz ixracımızın yarısı Avropa İttifaqının üzv dövlətlərinə gedir və bütövlükdə, Avropa İttifaqının 10 üzvü Azərbaycan qazını alır, bu coğrafiyanı genişləndirmək potensialı da mövcuddur", - Prezident İlham Əliyev bildirib.



## Bağlantılar, bərpa olunan enerji, təhlükəsizlik məsələləri

Aİ-Azərbaycan əməkdaşlığının gündəliyində bağlantılar, bərpa olunan enerji, regional təhlükəsizlik məsələləri kimi digər mühüm strateji sahələr də önəmli yer tutmaqdadır. Prezident İlham Əliyevin Ursula Fon der Lyayenlə görüşündə bu sahələr də xüsusi diqqət mərkəzində olub. Qarşı tərəfə Azərbaycanın sözügedən istiqamətdə atdığı addımlar, gələcək perspektivlər və mövcud imkanları ilə bağlı ətraflı məlumat verilib.

Azərbaycan Prezidenti Ermənistanla sülh prosesindən də danışıb. "Biz göstəririk ki, sülh bizim üçün artıq hiss olunan məfhumdur, onu hiss edə bilirik və sülh şəraitində yaşamağı öyrənirik. Torpaqlarımız 30 il ərzində işğal altında qalmışdı. Biz suverenliyimizi, ərazi bütövlüyümüzü güc və siyasi vasitələrlə bərpa etdik. Biz Ermənistana sülh təklif etmişik. Bir sözlə, sülh artıq reallıqdır. Lakin biz onu gücləndirmək, uzunmüddətli və əbədi etmək üçün ürəkdən çalışmalıyıq. Əlbəttə, biz Avropa Komissiyasının dəstəyini çox yüksək dəyərləndiririk", - İlham Əliyev bildirib.



### SƏFƏRİN MƏQSƏDİNİ AYDIN İFADƏ EDƏN MESAJ

Təbii ki, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin də Bakıda səsləndirdiyi bəyanatlar xüsusi diqqət çəkir. Məqsədin tərəfdaşlığı dərinləşdirmək olduğunu bildirən Lyayen Azərbaycanın Aİ üçün önəmli aktor olduğunu bir daha təsdiqləmiş oldu. Aİ rəhbərliyi Azərbaycan Prezidenti İlham Əliyevin regionda sülhün əldə olunması istiqamətindəki fəaliyyətinə və dövlət başçısının liderlik keyfiyyətlərinə də yüksək dəyər verir. "Siz regionda sülhün və əməkdaşlığın təşviq olunmasında şəxsi liderlik keyfiyyətlərini nümayiş etdirdiniz. Bu, sabitlik, etimad və ortaq rifah üçün yeni imkanlar yaradır. Avropa İttifaqı bu prosesi qəti şəkildə dəstəkləyir", - Fon der Lyayen bildirib.

## Avropa İttifaqının Cənubi Qafqaz prioritetləri

Avropa Komissiyasının Prezidentinin təmsil etdiyi qurumun Azərbaycan və Cənubi Qafqazla bağlı açıqladığı prioritetlər də maraq doğurur. Diqqət çəkən məqam bu məlumatların ilk olaraq Bakıdan dünyaya bəyan edilməsidir. Ursula Fon der Lyayen bildirib ki, Aİ bağlantı vasitəsilə sülhü gücləndirmək istəyir: "Biz "Qlobal Qapılar" Sərmayə Proqramımız vasitəsilə Cənubi Qafqazda nəqliyyata, enerjiyə və rəqəmsal keçidlərə 200 milyon avroya qədər qrant şəklində sərmayə yatıracağıq. Bunun dövlət və özəl sərmayələr formasında 2 milyard avroya qədər vəsaitləri cəlb etmək potensialı var. Layihələrə Naxçıvandan keçən dəmir yolu bağlantısı və ya Bakı limanının inkişaf etdirilməsi daxil ola bilər. Cənubi Qafqaz Avropanı, Xəzər regionunu və Mərkəzi Asiyanı birləşdirən dünyanın ən möhtəşəm kəsişmələrindən biridir. Onun strateji əhəmiyyəti artmaqda davam edir. Azərbaycan burada əsas rol oynaya bilər. Regional əməkdaşlığı və sabitliyi irəli aparmaq üçün çox az sayda ölkənin sizin ölkəniz kimi yerləşməsi var. Azərbaycan öz strateji coğrafiyasını artan iqtisadi, siyasi və regional nüfuzu ilə düşünülmüş şəkildə birləşdirir. Məhz buna görə biz Avropa İttifaqı-Azərbaycan Bağlantı Tərəfdaşlığının başlanılmasını təklif edirik".

Beləliklə, "Euronews" kanalının vurğuladığı kimi, Brüssel enerji, nəqliyyat, iqtisadi dayanıqlılıq və regional sabitlik sahələrində əməkdaşlığı dərinləşdirməyə çalışdığı bir vaxtda, Aİ Cənubi Qafqaz və Türkiyə ilə əlaqələri gücləndirmək üzrə daha geniş strategiyaya başlayıb. Bu strategiyada isə əsas aktor Azərbaycandır.

# RƏQƏMSAL İNKİŞAF ŞURASININ İLK İCLASI KEÇİRİLİB

**Mehriban Əliyeva: “Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Biz xarici, beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik”.**



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib. İclasda Birinci vitse-prezident Mehriban Əliyeva çıxış edib.

### “RƏQƏMSAL İNKİŞAF ÜZRƏ FƏALİYYƏT PLANI TƏSDİQLƏNİB”

Mehriban xanım Əliyeva bildirib ki, cari ilin fevral ayında Prezident İlham Əliyevin sədrliyi ilə ölkəmizin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunmuş müşavirə keçirilib və verilən tapşırıqlara əsasən, rəqəmsal inkişaf üzrə Fəaliyyət Planı təsdiqlənib: “Qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını təmin edən konkret Yol xəritəsi müəyyən olunmuşdur. Şuranın əsas vəzifəsi müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir. Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda, ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır”.

### “YARANAN RİSKLƏRƏ HAZIR OLMALIYIQ”

Birinci vitse-prezident qeyd edib ki, süni intellekt artıq gələcəyin deyil, bu günün əsas inkişaf amilidir. Eyni zamanda, süni intellektin dövlətlərin təhlükəsizliyinin təmin edilməsində rolu artmaqdadır və artıq mərkəzi yer tutur: “Sirr deyil ki, dünyanın aparıcı dövlətlərində süni intellektin inkişafı göz lənilən proqnozlardan daha sürətli gedir və bu, öz növbəsində həm yeni imkanlar, eyni zamanda, yeni təhlükələr yaradır. Biz yeni çağırışlara, xüsusilə kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində olan və yaranan risklərə hazır olmalıyıq.

Fəaliyyətimiz bütün dövlət qurumlarının birgə fəal və səmərəli işini tələb edir. Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Biz xarici, beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik. Lakin bütün qərarlar Azərbaycanın milli maraqlarına və ehtiyaclarına cavab verən amillərə əsasən qəbul olunmalıdır”.

## “40 DÖVLƏT QURUMU İLƏ YOL XƏRİTƏLƏRİ HAZIRLANIB”

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev “Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı”nın icrası ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə Birinci vitse-prezidentə məlumat verib. Qeyd edib ki, fəaliyyət planı rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik istiqamətləri üzrə 58 təşəbbüsü əhatə edir. Rəqəmsallaşma istiqamətində görülən işlərə toxunan nazir 40 dövlət qurumu ilə Yol xəritələrinin hazırlandığını, onlardan 13-nün artıq təsdiqləndiyini və ya təsdiq mərhələsində olduğunu deyib.

Rəşad Nəbiyev Milli Məlumat Hövzəsinin yaradılması barədə məlumat verib. “Mygov” platformasının xidmət dairəsinin genişləndirildiyini, son üç ayda istifadəçilərin sayının 2,7 milyondan 3,5 milyona çatdığını deyən nazir artıq bir neçə tətbiqin platformaya inteqrasiya olunduğunu, daha yeddi dövlət tətbiqinin xidmətlərinin isə ilin sonunadək vətəndaşların istifadəsinə veriləcəyini bildirib.



Nazir fəaliyyət planının əsas prioritetlərindən birinin süni intellekt olduğunu vurğulayaraq, “mygov” və digər dövlət qurumlarında süni intellekt həllərinin tətbiqinin genişləndirildiyini, virtual vətəndaş köməkçisinin istifadəyə verildiyini deyib. Qeyd edib ki, Milli Təhlükəsizlik Əməliyyatları Mərkəzi, Milli Kiber İnsidentlərə Qarşı Mübarizə Mərkəzi və Rəqəmsal Təhqiqat Mərkəzinin yaradılması, həmçinin dövlət və özəl sektor arasında operativ məlumat mübadiləsini təmin edəcək vahid milli kibertəhlükəsizlik platformasının qurulması istiqamətində işlər davam etdirilir.

## DÖVLƏT SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİNDƏN BİRİ

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov rəqəmsal sahədə qanunvericilik üzrə islahatlar barədə Birinci vitse-prezidentə məlumat verib. Qeyd edib ki, dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi rəqəmsal transformasiya ardıcıl şəkildə həyata keçirilir. Dövlət başçısının bu ilin fevralında imzaladığı Fərmanla Rəqəmsal İnkişaf Şurasının yaradıldığını və “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı”nın təsdiqləndiyini xatırladan Şahmar Mövsümov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Şurada müəyyən edilmiş strateji prioritetlərə və verilmiş tapşırıqlara uyğun olaraq müasir qanunvericilik bazasının formalaşdırılması istiqamətində kompleks islahatların hazırlandığını deyib.

Şahmar Mövsümov islahatın əhatə etdiyi sahələrə toxunaraq bildirib ki, bunlar hüquqi müəyyənliyin təmini, rəqabətqabiliyyətli vergi mühitinin formalaşdırılması, innovasiyaların maliyyələşdirilməsi, elmi-tədqiqat və innovasiya təşviqləri, istedadların cəlb edilməsi, bazara çıxış imkanlarının genişləndirilməsi və kibertəhlükəsizlik sahəsində tənzimləmənin təkmilləşdirilməsidir.

Elm və təhsil naziri Emin Əmrullayev ölkədə təhsilin rəqəmsallaşdırılması istiqamətində görülən işlər və gələcək planlar barədə Birinci vitse-prezidentə məlumat verib.

### “TƏDRİSİN RƏQƏMSALLAŞDIRILMASI NƏZƏRDƏ TUTULUR”

Nazir təhsil müəssisələrinin vahid internet şəbəkəsi ilə təminatı, “Rəqəmsal məktəb” layihəsi, təhsil pillələri üzrə məlumatların rəqəmsallaşması, təhsil sənədlərinin elektronlaşdırılması məsələlərinə toxunub, növbəti mərhələ olaraq tədrisin rəqəmsallaşdırılmasının nəzərdə tutulduğunu deyib.

Emin Əmrullayev, həmçinin şagirdlərin rəqəmsal bacarıqlarının inkişafı üçün məktəblərdə həyata keçirilən “Rəqəmsal bacarıqlar”, “STEAM Azərbaycan” layihələrini qeyd edib.

# HƏDƏF REGİONUN TEXNOLOGİYA MƏRKƏZİ OLMAQDIR

Azərbaycan regionun texnologiya mərkəzinə çevrilməyi hədəfləyir. Ekspertlər hədəfin real olduğunu qeyd etsələr də, bu istiqamətdə ciddi addımların atılmalı olduğu qənaətindədirlər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




2026-2028-ci illər üzrə Rəqəmsal İnkişafın Sürətləndirilməsi Fəaliyyət Planının əsas məqsədlərindən biri Azərbaycanı texnologiya şirkətlərinin qurulması, maliyyələşdirilməsi və inkişaf etdirilməsi üçün regionun ən cəlbedici ölkələrindən birinə çevirməkdir.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov bildirib ki, bu məqsədə nail olmaq üçün ilk növbədə mövcud problemləri aradan qaldırmalıyıq: “Bu gün gənc innovativ şirkətlərin istifadə etdiyi bir çox maliyyələşmə alətləri Azərbaycan qanunvericiliyində ya mövcud deyil, ya da hüquqi statusu qeyri-müəyyəndir. Vençur kapitalı fondlarının fəaliyyəti üçün tam hüquqi çərçivə formalaşmayıb. Kraudfandinq mexanizmi mövcud deyil. Startapların istedadlı əməkdaşları şirkətə bağlamaq üçün istifadə etdiyi işçilərə şirkət payı verməsi hüquqi baxımdan tənzimlənmir. Nəticədə sahibkarlar və investorlar çox zaman xarici yurisdiksiyalara müraciət etməyə məcbur olurlar. Biz isə istəyirik ki, Azərbaycan sahibkarı şirkətini xaricdə deyil, Azərbaycanda qursun”.

Maraqlıdır, Azərbaycanın regionun texnologiya mərkəzlərindən birinə çevrilməsi nə dərəcədə real hədəfdir?

### İNSAN KAPİTALI, TƏNZİMLƏYİCİ MÜHİT, MALİYYƏ EKOSİSTEMİ, ETİBARLILIQ

Kibertəhlükəsizlik və süni intellekt eksperti Azər Əlili deyir ki, dövlətin texnologiya sektorunu prioritet kimi müəyyənləşdirməsi istər investorlar, istər yerli startaplar, istərsə də beynəlxalq şirkətlər üçün əhəmiyyətli mesajdır: “Bu cür strateji sənədlərin mövcudluğu özü artıq müsbət siqnaldır. Lakin realist olmaq lazımdır. Texnologiya mərkəzi olmaq bir fəaliyyət planının nəticəsi ilə mümkün deyil. Bu, uzun illər ərzində formalaşan, bir-birini tamamlayan bir neçə amildən asılıdır. Bunlar insan kapitalı, tənzimləyici mühit, maliyyə ekosistemi, qlobal əlaqəlilik və ən əsası etibarlılıqdır. Bu sahədə Azərbaycanın potensialı var, amma bu potensial hələ ki, strukturlaşdırılmamış olaraq qalır. Odur ki, hədəf real görünür, lakin onun həyata keçirilməsi ciddi və ardıcıl iş tələb edir”.

### EKOSİSTEM ÜÇÜN ÜÇ ƏSAS PRİORİTET

Qanunvericilik dəyişikliklərindən əlavə hansı fundamental addımlar atılmalı olmasına gəldikdə, mütəxəssis bildirir ki, qanunvericilik zəruridir, amma kifayət deyil: “Təcrübə göstərir ki, əksər ölkələr qanunları yazır, lakin ekosistemi qura bilmir. Ekosistem üçün üç əsas prioritet vacibdir. Birincisi, insan kapitalına investisiyadır. Bu gün Azərbaycanda texnologiya mütəxəssislərinin sayı tələbi ödəmir. Universitetlərimiz hələ də köhnə kurikulumla işləyir, praktiki bacarıqlar isə arxa plana keçir. Süni intellekt, kibertəhlükəsizlik, bulud texnologiyaları, məlumat elmi bu sahələrdə yüksək ixtisaslı mütəxəssis yetişdirməyincə hər hansı texnologiya mərkəzi iddiası boşluqda qalacaq. İkincisi, startap ekosistemidir. Maliyyə mexanizmləri, kapitalı fondları, vergi güzəştləri, akseleratorlar olmadan texnologiya şirkətləri ya yaranmır, ya da yarandıqdan dərhal sonra xarici bazarlara köçür. Biz prosesin nəticəsini deyil, başlanğıcını maliyyələşdirməliyik. Bizdə risk kapitalı mədəniyyəti hələ formalaşmayıb. Bu boşluğu dövlət-özəl tərəfdaşlıq modelləri ilə doldurmaq olar. Üçüncüsü, kibertəhlükəsizlik infrastrukturudur. Texnologiya mərkəzi olmaq istəyirsinizsə, həmin mərkəzin təhlükəsiz olması şərtdir. Şirkətlər və investorlar öz məlumatlarının, əqli mülkiyyətlərinin qorunduğuna əmin olmaq istəyirlər”.




## “Əsas üstünlüyümüz əlverişli coğrafi mövqeyimizdir”

A. Əlilinin sözlərinə görə, bu sahədə strategiya qurarkən regional rəqabət mühiti mütləq nəzərə alınmalıdır. O qeyd edir ki, Azərbaycanın əsas üstünlüklərindən biri əlverişli coğrafi mövqeyidir: “Azərbaycan həm Avropa, həm Asiya, həm də Yaxın Şərqlə əlaqə nöqtəsindədir. Bu, texnologiya şirkətləri üçün strateji baza deməkdir. Bundan əlavə, sabit makroiqtisadi mühit, inkişaf etməkdə olan rəqəmsal infrastruktur və son illərdə güclənən dövlət rəqəmsallaşma proqramları, ASAN xidmət, e-hökumət həlləri bizi regionda fərqləndirən amillərdir. Maliyyə resurslarımız da regional rəqiblərin əksəriyyəti ilə müqayisədə üstündür. Çatışmazlıqlar isə açıq danışmaq tələb edir”.

## Azərbaycan üçün unikal fürsət

Ekspert hesab edir ki, texnologiya sahəsində “çox gec” anlayışı mövcud deyil, əsas risk hərəkətsiz qalmaqdır: “Süni intellekt inqilabı hər şeyi yenidən düzür. Dünya üzrə ölkələrin böyük əksəriyyəti AI strategiyalarını başdan yazır. Bu, Azərbaycan üçün unikal bir fürsətdir. Hər sahədə lider olmaq məcburiyyətimiz yoxdur. Düzgün seçilmiş iki-üç sahədə regional lider olmaq tamamilə real hədəfdir”.

### “BU HƏDƏF KİFAYƏT QƏDƏR REAL GÖRÜNÜR”

Kibertəhlükəsizlik üzrə ekspert Mehman İsgəndərov deyir ki, Azərbaycanın regionun texnologiya və innovasiya mərkəzlərindən birinə çevrilməsi ambisiyalı görünə bilər. Lakin mövcud geosiyasi mövqeyi, rəqəmsal infrastruktur layihələri və dövlətin bu sahəyə strateji yanaşması nəzərə alındıqda, bu hədəf kifayət qədər real görünür: “Bunun üçün ölkənin müəyyən üstünlükləri var. Coğrafi mövqeyimiz, dövlət səviyyəsində rəqəmsallaşmaya verilən diqqət, telekommunikasiya və internet infrastrukturuna yatırılan investisiyalar bu istiqamətdə əhəmiyyətli baza yaradır. Ancaq etiraf etməliyik ki, texnologiya mərkəzi olmaq yalnız infrastruktur qurmaq və ya qanunlar qəbul etməklə mümkün deyil. Burada əsas məsələ innovasiya ekosisteminin formalaşdırılmasıdır”.

# QLOBAL TƏHLÜKƏSİZLİYƏ YÖN VERƏCƏK ZİRVƏ

NATO-ya üzv ölkələrin liderləri Ankarada bir araya gələcəklər. Sammit Alyansın gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, müttəfiqlər arasında həmrəyliyin gücləndirilməsi və müdafiə potensialının artırılması baxımından mühüm əhəmiyyət daşıyır.



AZƏR NURİYEV

Türkiyə paytaxtı Ankara son illərin ən mühüm tədbirlərindən birinə hazırlaşır. 7-8 iyul tarixlərində Ankarada NATO-nun tarixi adlandırılan sammiti baş tutacaq. Zirvə qlobal təhlükəsizlik mühitinin sürətlə dəyişdiyi, Rusiya-Ukrayna müharibəsinin davam etdiyi, Yaxın Şərqdə gərginliyin artdığı və Avropa təhlükəsizlik sisteminin yeni çağırışlarla üzləşdiyi bir dövrdə təşkil edilir. Sammit NATO-nun gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, müttəfiqlər arasında həmrəyliyin gücləndirilməsi və kollektiv müdafiə potensialının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Türkiyənin də sammitdən gözləntiləri çoxdur. Ankara NATO-nun ikinci ən böyük ordusuna malikdir və alyansın cənub cinahında əsas geosiyasi dayaqlardan hesab olunur. Budəfəki sammit 2004-cü ildə İstanbulda keçirilən NATO Zirvəsindən sonra Türkiyənin ev sahibliyi etdiyi ikinci sammit olacaq.

### MÜTTƏFİQLƏR ARASINDA FİKİR AYRILIQLARINA BAXMAYARAQ...

NATO-nun Baş katibi Mark Rüttenin sözlərinə görə, Ankarada yeni öhdəliklər deyil, artıq qəbul edilmiş qərarların icrası müzakirə olunacaq. Rütte qeyd edib ki, sammitin uğuru müttəfiqlərin müdafiə xərclərini ÜDM-in 5%-nə qədər artırmaq, silah istehsalını çoxaltmaq və Ukraynaya dəstəyi davam etdirmək üçün nə dərəcədə etibarlı bir trayektoriya təsdiqləyə bilməsindən asılı olacaq. Onun sözlərinə görə, əsas vəzifə Moskvaya NATO-nun hər hansı bir hücum halında özünü müdafiə etməyə hazır olduğunu nümayiş etdirməkdir. Rütte vurğulayıb ki, müttəfiqlər arasında fikir ayrılıqlarına baxmayaraq, alyans əsas qərarları qəbul edərkən birliyi qoruyur.



## SAMMİTİN TÜRKİYƏ ÜÇÜN ƏHƏMİYYƏTİ

Sammit öncəsi Almaniya Kansleri Fridrix Merts ilə telefon danışığı aparan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, Ankarada keçiriləcək NATO Sammitində Avropanın alyans çərçivəsində müdafiə imkanlarını gücləndirməsini gözləyir. Ərdoğan hesab edir ki, ABŞ Prezidenti Donald Trampın sammitdə iştirakı Şimali Atlantika blokunun birliyinin möhkəmləndirilməsinə kömək edən mühüm amil olacaq: "Sammitin NATO tarixində əlamətdar hadisəyə çevrilməsi üçün hazırlıqları sürətləndirmişik".

Digər Türkiyə rəsmilərinin fikrincə, sammit ölkənin müdafiə sənayesinin inkişafını, hərbi imkanlarını və diplomatik nüfuzunu nümayiş etdirmək üçün mühüm platformaya çevriləcək.

Sammit Türkiyə üçün yalnız diplomatik deyil, iqtisadi və siyasi baxımdan da mühüm əhəmiyyət daşıyır. Ankara regionun təhlükəsizlik arxitekturasında əsas aktorlardan biri kimi mövqeyini daha da möhkəm-ləndirməyə çalışır. Türkiyə üçün bu tədbir beynəlxalq nüfuzunu artırmaq, regional liderlik mövqeyini möhkəmləndirmək və NATO daxilində strateji rolunu daha da gücləndirmək baxımından mühüm fürsət kimi qiymətləndirilir. Qəbul olunacaq qərarların təkcə alyans üzvlərinə deyil, bütövlükdə Avropa və Yaxın Şərqdə təhlükəsizlik mühitinə uzunmüddətli təsir göstərməsi gözlənilir.

Türkiyə NATO-nun ən mühüm üzvlərindən biri kimi uzun illərdir Alyansın cənub cinahının təhlükəsizliyinin təmin olunmasında əsas rol oynayır. Qara dəniz, Aralıq dənizi, Yaxın Şərq və Qafqaz kimi strateji regionların kəsişməsində yerləşməsi Ankaranı NATO üçün əvəzolunmaz tərəfdaşa çevirir. Məhz buna görə də Ankarada keçiriləcək sammitin gündə-liyində yalnız Avropa təhlükəsizliyi deyil, həm də Yaxın Şərq, enerji təhlükəsizliyi, terrorizmlə mübarizə və müdafiə sənayesi əməkdaşlığı xüsusi yer tutur.



Mark Rütte



Rəcəb Tayyib Ərdoğan

## ƏSAS MÖVZU MÜDAFİƏ XƏRCLƏRİNİN ARTIRILMASI OLACAQ

Yeri gəlmişkən, Ankara sammitinin əsas mövzularından biri NATO ölkələrinin müdafiə xərclərinin artırılması olacaq. Son illərdə alyans rəhbərliyi üzv dövlətlərin müdafiəyə daha çox vəsait ayırmasının vacibliyini dəfələrlə vurğulayıb. Sammitdə müdafiə sənayesinin genişləndirilməsi, silah istehsalının artırılması, birgə hərbi layihələrin həyata keçirilməsi və müdafiə texnologiyalarına investisiyaların qoyuluşu məsələlərinin müzakirə olunacağı gözlənilir. NATO rəhbərliyi hesab edir ki, dəyişən təhlükəsizlik mühiti alyansın daha çevik, müasir və yüksək hazırlıq səviyyəsinə malik qüvvələr formalaşdırmasını tələb edir. Rusiya-Ukrayna müharibəsi də müzakirələrin əsas prioriteti olaraq qalır. Ankara sammitində Ukraynaya siyasi, maliyyə və hərbi dəstəyin davam etdirilməsi, hava hücumundan müdafiə sistemlərinin gücləndirilməsi gözlənilir. Ankara sammiti NATO-nun Ukrayna siyasətinin gələcək istiqamətlərini müəyyən edən mühüm platforma olacaq.

### ÇİNLƏ BAĞLI TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ DƏ MÜZAKİRƏ EDİLƏ BİLƏR

Son illər NATO daxilində müdafiə xərcləri, ABŞ-Avropa münasibətləri və təhlükəsizlik öhdəlikləri ilə bağlı müxtəlif fikir ayrılıqları müşahidə olunur. Ankara sammitinin əsas məqsədlərindən biri bu fikir ayrılıqlarını minimuma endirmək və alyansın vahid mövqeyini nümayiş etdirməkdir.

Sammitdə Çinlə bağlı təhlükəsizlik məsələləri də müzakirə edilə bilər. NATO rəhbərliyi hesab edir ki, Pekinin hərbi potensialının artması, texnoloji rəqabət və kritik infrastrukturun təhlükəsizliyi Alyansın strateji planlaşdırılmasında nəzərə alınmalıdır. Ankara sammitində kibertəhlükəsizlik, süni intellektin hərbi sahədə tətbiqi, kosmos təhlükəsizliyi, enerji infrastrukturlarının qorunması və hibrid müharibə metodlarına qarşı mübarizə də geniş müzakirə ediləcək. Bu məsələlər NATO-nun gələcək strateji konsepsiyasının əsas istiqamətlərindən hesab olunur.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# BANK KREDİTLƏRİ İLƏ BAĞLI YENİLİK



Müştərilər yalnız bir bankla işləməyə meyilli olmayacaqlar. Onlar ən uyğun təklif təqdim edən maliyyə qurumunu seçəcək, xidmətlərini müxtəlif platformalar üzərindən idarə edəcəklər. Bu səbəbdən banklar müştərini saxlamaq üçün daha çox dəyər yaratmağa çalışacaqlar.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda “açıq bankçılıq” sisteminin tətbiqi bankların müştərilərə daha fərdiləşdirilmiş kredit təklifləri verməsinə imkan yaradacaq. Yeni sistem sayəsində maliyyə qurumları vətəndaşların müxtəlif banklardakı maliyyə məlumatlarını nəzərə alaraq onların gəlir və ödəniş qabiliyyətini daha dəqiq qiymətləndirə biləcəklər. Bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) Maliyyə Texnologiyaları və İnnovasiyalar departamentinin açıq bankçılıq üzrə mütəxəssisi Elmar Didəkənan məlumat verib. Maraqlıdır, bu yanaşma kreditlərə marağı artıra bilərmi?

Azərbaycan Banklar Assosiasiyasından (ABA) “Kaspi” qəzetinə verilən məlumata görə, açıq bankçılıq bank sektorunda məlumat mübadiləsinin daha standart, təhlükəsiz və sistemli şəkildə həyata keçirilməsinə imkan yaradır. Bu model müştərinin razılığı əsasında banklar və fintexlər arasında inteqrasiyanı gücləndirir, maliyyə xidmətlərinin daha əlçatan və fərdiləşdirilmiş formada təqdim olunmasına şərait yaradır. Nəticədə bank sektorunda rəqəmsal xidmətlərin inkişafı, rəqabətin artması və müştəriyönümlü həllərin genişlənməsi üçün yeni imkanlar formalaşdırır.

### “KREDİT BAZARINDA RƏQABƏT GENİŞLƏNƏCƏK”

Fərdiləşdirilmiş kredit modelinin bankların risk idarə etməsinə necə təsir etməsinə gəldikdə isə, ABA-dan bildirilir ki, açıq bankçılıq banklara və fintexlərə müştərinin razılığı əsasında daha geniş maliyyə məlumatlarını təhlil etmək imkanı verir: “Müxtəlif bank hesabları üzrə gəlirlər, xərcləmə davranışı və ödəniş intizamı kimi məlumatların vahid şəkildə qiymətləndirilməsi risk analizinin daha dəqiq aparılmasına şərait yaradır. Bu yanaşma kredit qərarlarının daha məlumat əsaslı qəbul edilməsinə, risk profilinə uyğun fərdiləşdirilmiş kredit şərtlərinin formalaşdırılmasına və risk idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə imkan verir. Açıq bankçılıq kredit bazarında həm rəqabətin genişlənməsinə, həm də risk əsaslı qiymətləndirmə imkanlarının artmasına şərait yaradır. Eyni zamanda, daha geniş maliyyə məlumatlarının təhlili kredit qabiliyyətinin daha dəqiq qiymətləndirilməsini təmin edir. Bu isə kredit limitlərinin, faiz şərtlərinin və məhsul təkliflərinin müştərinin real maliyyə davranışına uyğun şəkildə müəyyən edilməsi deməkdir”.




### “BU, YALNIZ MÜŞTƏRİNİN RAZILIĞI ƏSASINDA HƏYATA KEÇİRİLİR”

Məlumatların paylaşılması, müxtəlif sistemlər arasında inteqrasiyanın genişlənməsi fonunda kibertəhlükəsizlik və məlumatların qorunması məsələləri də narahatlıq yaradır. ABA-nın məlumatına görə, açıq bankçılıq modelində əsas prioritet məlumat mübadiləsinin təhlükəsiz, şəffaf və tənzimləyici tələblərə uyğun şəkildə həyata keçirilməsidir: “Sistemdə bütün məlumat paylaşımı yalnız müştərinin razılığı əsasında həyata keçirilir. Eyni zamanda, əməliyyatların təsdiqlənməsi və məlumatlara çıxış gücləndirilmiş müştəri autentifikasiyası tələblərinə uyğun şəkildə icra olunur (OTP, biometrik identifikasiya və digər təhlükəsizlik həlləri vasitələri). Bununla yanaşı, banklar və digər maliyyə institutları daxili risk idarəetməsi, kibertəhlükəsizlik və məlumatların qorunması istiqamətində nəzarət mexanizmlərinidavamlı olaraq gücləndirməlidirlər”.

### BANK SEKTORUNDA FUNDAMENTAL DƏYİŞİKLİK

Bank nümayəndəsi Ləman Şeyxəliyeva deyir ki, açıq bankçılıq sayəsində bank sektorunda ən fundamental dəyişiklik məlumatların idarə olunması və istifadəsi modelində yaranacaq: “Açıq bankçılıq müştərinin razılığı əsasında müxtəlif maliyyə institutlarında olan məlumatların təhlükəsiz şəkildə paylaşılmasına imkan verir. Bu dəyişiklik nəticəsində banklar müştərini daha dolğun və obyektiv qiymətləndirə biləcəklər. Məsələn, bir müştərinin əsas əməkhaqqı hesabı bir bankda, əmanəti digər bankda, gündəlik ödəniş əməliyyatları isə fərqli maliyyə platformalarında ola bilər. Açıq bankçılıq sayəsində müştərinin ümumi maliyyə mənzərəsini görmək mümkün olacaq. Digər mühüm dəyişiklik rəqabət mühitində müşahidə ediləcək. Açıq bankçılıq dövründə banklar daha çox xidmət keyfiyyəti, istifadəçi təcrübəsi, məhsul innovasiyaları və sürətli qərarvermə ilə fərqlənməyə çalışacaqlar. Bununla yanaşı, açıq bankçılıq maliyyə ekosisteminin formalaşmasını sürətləndirəcək. Banklar, fintex şirkətləri, elektron ticarət platformaları və digər rəqəmsal xidmət təminatçıları arasında inteqrasiya genişlənəcək. Nəticədə müştəri bir platforma üzərindən daha çox maliyyə xidmətinə çıxış əldə edəcək”.

## “KREDİTLƏRİN RİSK QİYMƏTLƏNDİRMƏSİ DAHA DƏQİQ OLACAQ”

Bank əməkdaşı bildirir ki, açıq bankçılığın ən böyük üstünlüklərindən biri risk qiymətləndirməsinin daha dəqiq və data əsaslı həyata keçirilməsidir: “Hazırda kredit qərarları əsasən bankın özündə mövcud olan məlumatlar, kredit tarixçəsi və gəlir sənədləri əsasında verilir. Açıq bankçılıq isə bu məlumat bazasını əhəmiyyətli dərəcədə genişləndirir. Müştərinin müxtəlif banklardakı hesab hərəkətləri, ödəniş intizamı, xərcləmə davranışı, gəlir axınlarının sabitliyi və digər maliyyə göstəriciləri risk modellərinə daxil edilə bilər. Bu isə kredit riskinin daha dəqiq hesablanmasına imkan yaradır. Nəticədə iki mühüm üstünlük əldə olunur. Birincisi, risk səviyyəsi aşağı olan müştərilər daha sərfəli faiz dərəcələri və daha uyğun kredit şərtləri əldə edə bilərlər. İkincisi, ənənəvi kredit skorlama sistemlərində kifayət qədər tarixçəsi olmayan şəxslərin qiymətləndirilməsi daha asan olacaq. Məsələn, gənclər, yeni əmək fəaliyyətinə başlayan şəxslər və ya kiçik sahibkarlar alternativ məlumatlar əsasında daha obyektiv dəyərləndirilə biləcəklər”.

### ŞƏFFAFLIQ, SEÇİM AZADLIĞI VƏ RƏQƏMSAL AKTİVLİK

Ləman Şeyxəliyeva bildirir ki, bu sistemin tətbiqindən sonra müştəri davranışında daha çox şəffaflıq, seçim azadlığı və rəqəmsal aktivlik müşahidə olunacaq: “Müştərilər maliyyə xidmətlərini daha rahat müqayisə edə biləcəklər. Kredit, kart, əmanət və digər məhsullar üzrə təkliflər real vaxt rejimində fərdiləşdirilmiş formada təqdim ediləcək. İkinci mühüm dəyişiklik loyallıq anlayışında olacaq. Müştərilər yalnız bir bankla işləməyə meyilli olmayacaqlar. Onlar ən uyğun təklif təqdim edən maliyyə qurumunu seçəcək, xidmətlərini müxtəlif platformalar üzərindən idarə edəcəklər. Bu səbəbdən banklar müştərini saxlamaq üçün daha çox dəyər yaratmağa çalışacaqlar”.

Bank eksperti Emin Kərimov da bildirir ki, açıq bankçılıq müasir dövrün tələblərindən biridir: “Sadə dildə desək, vətəndaşın bir bankda depoziti, digərində krediti, başqa bir bankda isə hesabı varsa, o, açıq bankçılıq sisteminə razılıq verməklə bütün bu məlumatları bir platforma üzərindən görə bilir. Beləliklə, istifadəçi öz maliyyə məlumatlarına vahid bir nöqtədən çıxış əldə edir. Bu sistemə bank hesabları, elektron cüzdanlar və digər maliyyə alətləri üzrə məlumatlar daxil ola bilər”.

Bank eksperti bildirir ki, ölkədə açıq bankçılıq funksionallığının tətbiqinə 2025-ci ilin sonlarında başlanılıb: “İlkin mərhələdə 13 bankın inteqrasiya olunduğu açıq bankçılıq ekosistemi hazırda genişlənərək 21 bankı və iki elektron pul təşkilatını əhatə edir”.



Emin Kərimov

# DÖVLƏT-VƏTƏNDAŞ ÜNSİYYƏTİNDƏ YENİ MODEL

Qanuna dəyişikliklərdə əsas məqsəd vətəndaş müraciətlərinin təqdim olunması və idarə edilməsi prosesinin daha təkmil, rəqəmsal əsasda qurulmasıdır. Bu çərçivədə müraciətlərin Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim olunması nəzərdə tutulur.




**SEVİNC ABBASOVA**

Azərbaycanda vətəndaş müraciətlərinin idarə olunması sahəsində mühüm dəyişikliklər gözlənilir. "Vətəndaşların müraciətləri haqqında" qanuna edilmiş dəyişikliklər müraciətlərin qəbulu, qeydiyyatı və baxılması prosedurlarının daha müasir və rəqəmsal əsaslara uyğunlaşdırılmasını hədəfləyir. Dəyişikliklərə əsasən, artıq vətəndaşlar müraciətlərinə necə cavab almaq istədiklərini – elektron ünvan, poçt və ya Elektron Hökumət İnformasiya Sistemi (EHİS) vasitəsilə, özləri müəyyən edə biləcəklər. Bununla yanaşı, bəzi hallarda fərdi identifikasiya nömrəsi (FİN) və ya vergi ödəyicisinin eyniləşdirmə nömrəsinin (VÖEN) təqdim edilməsi də tələb olunacaq.

Bəs, bu dəyişikliklərin əsas mahiyyəti nədən ibarətdir? Yeniliklərin vətəndaşlara hansı faydası olacaq?

### XİDMƏT KEYFİYYƏTİ YÜKSƏLƏCƏK

Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü Azər Allahverənov bildirib ki, qanuna dəyişikliklərdə əsas məqsəd vətəndaş müraciətlərinin təqdim olunması və idarə edilməsi prosesinin daha təkmil, rəqəmsal əsasda qurulmasıdır. Bu çərçivədə müraciətlərin Elektron Hökumət İnformasiya Sistemi (EHİS) üzərindən təqdim olunması nəzərdə tutulur və müvafiq qanunvericilik normalarında bir sıra dəyişikliklər edilir.

Millət vəkili qeyd edib ki, bu islahatların əsas hədəfi elektron hökumət sahəsində fəaliyyətin daha səmərəli təşkili, dövlət idarəetməsinin optimallaşdırılması və xidmət keyfiyyətinin yüksəldilməsidir. Onun fikrincə, bu istiqamətdə normativ-hüquqi bazanın təkmilləşdirilməsi həm idarəetmənin effektivliyini artırır, həm də sistemli yanaşmanı gücləndirir.

A.Allahverənovun sözlərinə görə, dəyişikliklərin mühüm tərəflərindən biri müraciətlərin qeydiyyata alınması və mərkəzləşdirilmiş şəkildə izlənilməsidir. Bu, həm dövlət qurumları tərəfindən nəzarətin daha effektiv aparılmasına, həm də təhlil və proqnozlaşdırma imkanlarının genişlənməsinə şərait yaradır.

## "Yeni sistem bu problemləri aradan qaldıracaq"

Millət vəkili bildirib ki, praktiki baxımdan vətəndaşlar müxtəlif platformalar üzərindən müraciət edərkən bəzən məlumatların natamam və ya səhv təqdim olunması səbəbindən çətinliklərlə üzləşirlər. Yeni sistem bu problemləri aradan qaldıraraq, müraciətin strukturlaşdırılmış və standartlaşdırılmış formada təqdim edilməsinə imkan verəcək. Beləliklə, fiziki şəxslər üçün FİN, hüquqi şəxslər üçün isə VÖEN kimi məlumatlar sistemə düzgün şəkildə daxil ediləcək və müraciətin aidiyyəti üzrə çatdırılması asanlaşacaq.


Azər Allahverənov
Əlimamməd Nuriyev

### "MÜRACİƏTLƏRİN İTİRİLMƏSİ MİNİMUMA ENƏCƏK"

Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, hüquqşünas Əlimamməd Nuriyev də hesab edir ki, sözügedən dəyişikliklər mahiyyət etibarilə müsbətdir. Onun fikrincə, bu yanaşma dövlət orqanlarının inzibati idarəetmə modelindən xidmət yönümlü idarəetmə modelinə keçidi baxımından zəruridir. Vətəndaşın müraciət hüququnun daha effektiv reallaşdırılmasına xidmət edir. Ekspert qeyd edib ki, əsas yenilik müraciət prosesinin rəqəmsallaşdırılması və fərdiləşdirilməsidir. Bu dəyişiklik vətəndaşı prosesin passiv iştirakçısından aktiv subyektinə çevirir. Onun sözlərinə görə, ikinci mühüm üstünlük müraciətlərin izlənilə bilməsidir. Elektron sistemdə qeydiyyata alınan müraciətlərin itirilməsi riski minimuma enir və onların statusunun izlənilməsi mümkün olur. Bu, praktiki baxımdan idarəetmədə şəffaflığı artıran mühüm elementdir.

Üçüncü üstünlük isə hüquqi sübut mexanizminin formalaşmasıdır. Vətəndaş müraciətin təqdim olunma tarixi və cavablandırılma müddəti ilə bağlı rəsmi elektron iz əldə edir ki, bu da gələcək inzibati və ya məhkəmə mübahisələrində onun hüquqi mövqeyini gücləndirir.

## "Söhbət yalnız texniki dəyişiklikdən getmir"

Bununla belə, Ə.Nuriyev vurğulayıb ki, bu üstünlüklərin real nəticə verməsi sistemin icra keyfiyyətindən asılıdır. Əgər cavablar formal xarakter daşıyacaqsa və "baxılır", "araşdırılır" kimi yanaşmalar dəyişməz qalacaqsa, elektronlaşma yalnız texniki xarakter alacaq.

Hüquqşünas həmçinin FİN və VÖEN kimi identifikasiya tələblərinin genişlənməsini şəffaflıq baxımından müsbət addım kimi qiymətləndirir. Onun sözlərinə görə, bu yanaşma müraciətlərin anonim və ya qeyri-müəyyən mənbələrdən daxil olması ilə bağlı riskləri azaldır və dövlət orqanları üçün cavabdehlik mexanizmini gücləndirir.

### BİR MÜRACİƏT, ÜÇ CAVAB YOLU

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Abbasov isə deyib ki, yeni qaydaların ən böyük üstünlüyü vətəndaş müraciətlərinin fərdiləşdirilməsi və cavabalma üsulunda seçim imkanlarının genişlənməsidir. Onun sözlərinə görə, bu dəyişikliklər vətəndaşların dövlət qurumlarından cavab alma prosesini xeyli sürətləndirə bilər: "Artıq vətəndaşın cavabı poçt qutusunda günlərlə gözləməsi zərurəti aradan qalxır. Cavabın birbaşa elektron ünvana və ya Elektron Hökumət İnformasiya Sistemi üzərindən şəxsi kabinetə göndərilməsi vaxt itkisini minimuma endirir və operativliyi artırır".

Ekspert vurğulayıb ki, FİN və VÖEN kimi identifikasiya məlumatlarının sistemə inteqrasiyası da mühüm yeniliklərdəndir. Bu yanaşma müraciətlərin emalını sürətləndirir, sənəd dövriyyəsini sadələşdirir və vətəndaşla dövlət qurumu arasında ünsiyyəti daha çevik və effektiv müstəviyə keçirir.

E.Abbasovun fikrincə, söhbət yalnız texniki dəyişiklikdən getmir. "Bu islahat dövlət idarəçiliyində məsuliyyət və hesabatlılıq mexanizmlərini gücləndirən strateji addımdır. Müraciətlərin rəqəmsal platformalar üzərindən qeydiyyatı və cavablandırılması proseslərin şəffaf izlənilməsinə imkan yaradır. Bu isə müraciətlərin itməsi, gecikdirilməsi və ya cavab müddətinin əsassız uzadılması kimi halların qarşısını texniki baxımdan almağa kömək edir", – deyə o qeyd edib.


Elvin Abbasov

**Foto:** Sabir Məmmədov/Global Photostock

# XƏSTƏXANALARDAKI NÖVBƏLƏRİ NECƏ TƏNZİMLƏMƏLİ?

İcbari tibbi sığortanın tətbiqinə başlanıldıqdan sonra dövlət xəstəxanalarında həkim qəbulu üçün növbələr müşahidə edilir. Hətta səhər tezdən növbəyə duran vətəndaşlar da gün ərzində həkim qəbuluna düşə bilmirlər.





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Dövlət xəstəxanalarında həkim qəbuluna düşmək vətəndaşlar üçün ciddi problemə çevrilib. Səhər tezdən növbəyə duran, saatlarla gözləyən, buna baxmayaraq həkim qəbuluna düşə bilməyən insanların sayı az deyil. Bəzi hallarda uzun növbələr xəstələrin müayinəsini günlərlə, hətta həftələrlə gecikdirir. Xüsusilə yaşlılar, xroniki xəstələr və azyaşlı uşaqlarla gələn valideynlər bu vəziyyətdən əziyyət çəkdiklərini bildirirlər. İcbari tibbi sığortanın tətbiqindən sonra xidmətə əlçatanlığın artacağını gözləyən vətəndaşlar xəyal qırıqlığına uğradıqlarını deyirlər.

Mövcud mənzərə dövlət tibb müəssisələrində növbələrin idarə olunması, həkim çatışmazlığı və xidmətin təşkili ilə bağlı sualları yenidən gündəmə gətirir.

### "AĞIR XƏSTƏLƏR BORC-XƏRCLƏ ÖZƏL KLİNİKALARA GEDİRLƏR"

Həkim-terapevt Məlahət Abbasovanın fikrincə, xəstəxanalarda xəstə növbələrinin səbəblərindən biri xəstələrin ağırlıq, orta və yüngülük dərəcələrinə görə bölüşdürülməməsidir: "Bunun üçün müəyyən bir sistem qurulmalıdır. Yüngül xəstə gözləyə və ya 5-10 gündən sonra da müayinəyə düşə bilər. Amma kəskin ağrı ilə gələn xəstənin gözləməsi bəzən onun üçün həyati təhlükə yarada bilər. Xəstə növbəsinə görə bəzən ağır xəstələr borc-xərclə özəl klinikalara gedirlər".



Məlahət Abbasova

Həkim növbələrin yaranmasına görə, insanları da qınayır: "Xəstələr var ki, lazım olmadı müayinəyə gəlirlər. Bəzisi profilaktik müayinədən keçməlidir. Həkim ona məsləhət görməsə də "MRT-dən keçməliyəm, yazmasan şikayət edəcəyəm" deyə inadkarlıq edir. Bu cür səbəblərdən MRT üçün növbə yaranır. Bu aparatdan gün ərzində 10 adam keçə bilir. Qoy müayinədən daha çox ehtiyacı olanlar keçsin".

M.Abbasovanın sözlərinə görə, Naxçıvan, Gəncə və başqa iri şəhərlərdə yaxşı təchiz olunmuş xəstəxanalar olsa da, xəstələr daha çox Bakıdakı həkimlərə inanır, buradakı müayinə və müalicənin daha effektiv ola biləcəyinə ümid edirlər.

### BAKIDA ƏHALİ SAYINA NİSBƏTDƏ XƏSTƏXANALAR AZDIR

Həkim-terapevt əhali sayına görə xəstəxanaların az olduğunu da etiraf edir: "Son illər Bakının əhalisi xeyli artıb. Rayonlardan Bakıya köçənlər çoxdur. Əhali çoxluğuna görə xəstəxanalar azlıq təşkil edir". M.Abbasova hesab edir ki, xəstəxanalarda növbələrin tənzimlənməsi üçün inzibati qaydada qərarlar qəbul olunmalıdır: "Elektron növbə sisteminin dəqiq işləməsi də növbə məsələsində effekt verə bilər. Amma hələ ki, sistem tam mərkəzləşmiş və hər yerdə eyni şəkildə işləyən vahid platforma kimi çalışmır".

### "ƏSAS VƏZİFƏ ARTAN TƏLƏBATI YENİ RESURSLARLA BALANSLAŞDIRMAQDIR"

Milli Məclisin Səhiyyə komitəsinin üzvü Müşfiq Məmmədlinin sözlərinə görə, icbari tibbi sığortanın tətbiqindən sonra xidmətə əlçatanlığın artması eyni zamanda, müraciət sayının da kəskin yüksəlməsinə səbəb olub: "Bu da növbələrin yaranmasına gətirib çıxarıb. Xüsusilə kardiologiya, nevrologiya, endikrinologiya, oftalmologiya, MRT və KT kimi xidmətlər üzrə tələbat daha yüksəkdir. Bu problemi yalnız mənfi hal kimi qiymətləndirmək düzgün olmaz. Bu, müəyyən mənada insanların artıq sistemə etibar etdiyini və xidmətlərdən daha fəal istifadə etdiyini göstərir. İndi əsas vəzifə artan tələbatı yeni resurslarla balanslaşdırmaqdır".

### "BÖLGƏLƏRDƏ KADR TƏMİNATININ GÜCLƏNDİRİLMƏSİ VACİBDİR"

M.Məmmədlinin sözlərinə görə, Milli Məclisdə səhiyyə sahəsi ilə bağlı müzakirələr zamanı xidmətə əlçatanlıq, vətəndaş məmnunluğu, kadr çatışmazlığı və növbələrin idarə olunması məsələləri dəfələrlə qaldırılıb: "Bir neçə dəfə parlament dinləmələri keçirilib. Deputatlar tərəfindən müxtəlif bölgələrdən daxil olan müraciətlər əsasında bu problemlər aidiyyəti qurumların diqqətinə çatdırılıb". Millət vəkilinin fikrincə, dövlət xəstəxanalarında xidmətə əlçatanlığın artırılması üçün ilk növbədə, həkim və orta tibb işçilərinin sayının artırılması və ya optimallaşdırılması, xüsusilə bölgələrdə kadr təminatının gücləndirilməsi vacibdir: "Eyni zamanda, ailə həkimliyi institutunun tam tətbiqi bir çox müraciətlərin ixtisaslaşmış xəstəxanalara yönəlməsinin qarşısını ala bilər. Bundan başqa, elektron növbə sisteminin təkmilləşdirilməsi, iş vaxtının daha çevik təşkili, axşam və həftəsonu ambulator qəbul imkanlarının genişləndirilməsi, diaqnostik xidmətlərin gücünün artırılması və özəl tibb müəssisələrinin icbari tibbi sığorta sisteminə daha geniş inteqrasiyası da növbələrin azalmasına mühüm töhfə verə bilər". Millət vəkili bildirir ki, növbələr probleminin həlli yalnız yeni xəstəxanaların tikilməsi ilə deyil, resursların düzgün idarə olunması, insan resurslarının artırılması və xidmətlərin səmərəli təşkili ilə mümkündür.



Müşfiq Məmmədli

## TƏBİB onlayn növbə sistemi qurur

TƏBİB-dən xəstəxanalardakı növbələrlə bağlı sorğumuza cavab olaraq bildirildi ki, qurumun tabeli tibb müəssisələrində vətəndaşların tibbi xidmətlərə çıxış imkanlarının genişləndirilməsi və xidmət keyfiyyətinin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir: "Vətəndaşların tibb müəssisələrinə müraciətləri zamanı vaxt itkisinin qarşısının alınması məqsədilə onlayn növbə sistemi tətbiq edilir. Bu sistem vətəndaşların həkim qəbuluna əvvəlcədən növbə götürməsinə imkan yaradaraq tibb müəssisələrində sıxlığın azalmasına, qəbul prosesinin daha nizamlı təşkilinə və xidmətin operativliyinin artırılmasına xidmət edir. Hazırda onlayn növbə sistemi Yeni Klinika, Abşeron Rayon Mərkəzi Xəstəxanası, Nizami Tibb Mərkəzi, Kliniki Tibbi Mərkəz və Xətai Tibb Mərkəzində tam istifadəyə verilib. Sistem mərhələli şəkildə tətbiq olunur və qısa müddət ərzində digər TƏBİB tabeli tibb müəssisələrində də istifadəyə verilməsi nəzərdə tutulur".

Qurumdan verilən məlumata görə, onlayn növbə sisteminin tətbiqinin şəffaf və planlı təşkili məqsədilə vətəndaşlardan daxil olan şikayətlər müvafiq struktur bölmələr tərəfindən araşdırılır, cavablandırılması təmin olunur və zəruri tədbirlər həyata keçirilir. Onlayn növbə sisteminin tətbiqinin əsas məqsədi vaxt itkisi olmadan vətəndaşları tibbi xidmətlərlə təmin edərək pasiyentyönümlü sistemin yaradılmasıdır.

BAKI VƏ ABŞERON YARIMADASINDA BAĞ EVLƏRİNƏ TƏLƏBAT ARTMAQDADIR

# VİLLALARIN KİRAYƏSİNDƏ REKORD ARTIM



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**2019-cu ildən etibarən Bakı və ətraf qəsəbələrdə kirayə mənzillərin qiymətində mütəmadi artım müşahidə olunur. Tələbin artması qiymətlərə birbaşa təsir göstərir və bu tendensiya 2026-cı ildə də davam edir.**

Yay mövsümünün başlaması ilə istirahət planları da aktuallaşır. Kimi ölkə xaricinə, kimi isə bölgələrə üz tutur. Şəhərin səs-küyündən uzaqlaşmaq istəyənlərin bir qismi isə bağ evlərinə üstünlük verir ki, bu da kirayə bazarında hərəkətliliyi artırır. Xüsusilə Bakı və Abşeron yarımadasında bağ evlərinə tələbatın artması qiymətlərdə də özünü göstərir. Bəs bu mövsüm bağ kirayələmək istəyənləri hansı qiymətlər gözləyir?

**BƏZİ VİLLALARIN AYLIQ KİRAYƏ HAQQI 30 MİN MANATA QƏDƏR YÜKSƏLİR**

### 1000 MANATDAN 30 MİN MANATA QƏDƏR

Bu il bağ evlərinin kirayə qiymətləri ötən illərlə müqayisədə daha yüksəkdir. Qiymətlərə təsir edən əsas amillər dənizə yaxınlıq, hovuzun olması, torpaq sahəsinin ölçüsü, evin təmir vəziyyəti və infrastruktur imkanlarıdır. Bakıətrafı bəzi villaların aylıq kirayə haqqı 30 min manata qədər yüksəlir. Söhbət əsasən Mərdəkan, Şüvəlan, Bilgəh, Zuğulba, Novxanı və Nardaran kimi prestijli qəsəbələrdə yerləşən villalardan gedir. Ərazilər üzrə qiymətlər fərqlənir. Nardaranda aylıq kirayə haqqı 4 500-20 000 manat, Bilgəhdə 2 500-17 000 manat, Pirşağıda 1 500-14 000 manat arasında dəyişir. Mərdəkanda bağ evləri əsasən 3 500-15 000 manata, Şüvəlanda isə 1 500-8 500 manata təklif olunur. Günlük villalar isə 150 manatdan başlayır, 500 manata qədər yüksəlir.

Dənizdən nisbətən uzaq ərazilərdə isə qiymətlər daha münasibdir. Türkan, Zirə, Hövsan və Maştağa kimi qəsəbələrdə daha əlçatan qiymətlərlə bağ evi kirayələmək mümkündür. Bu ərazilər əsasən orta büdcəli ailələrin seçimləri sırasında yer alır.

Hazırda Türkanda bağ evlərinin aylıq kirayə haqqı 600-2 000 manat, Zirədə 700-2 500 manat, Hövsanda 700-2 000 manat, Maştağada isə 800-3 000 manat aralığında dəyişir. Hovuzlu bağlarla adi bağlar arasındakı fərq 2-3 dəfə çoxdur.

### "ƏVVƏLLƏR XARİCƏ 500 DOLLARA SƏYAHƏT EDƏ BİLİRDİKSƏ..."

Əmlak eksperti Firdovsi Xəlilov da təsdiqləyir ki, son illərdə Bakı ətrafında kirayəyə verilən bağ evləri və villalar bazarında ciddi dəyişikliklər müşahidə olunur. Ekspert hesab edir ki, bu tendensiyaya təsir edən əsas səbəblərdən biri xarici istirahətin bahalaşmasıdır: "Quru sərhədlərin bağlı qalması və təyyarə biletlərinin bahalaşması insanların ölkə xaricinə səyahət imkanlarını məhdudlaşdırıb. Nəticədə yerli istirahət məkanlarına maraq artıb. Əgər əvvəllər adambaşına 500-600 dollar büdcə ilə xarici istirahət planlaşdırmaq mümkün idisə, indi eyni büdcə ilə bunu həyata keçirmək demək olar ki, mümkün deyil".



**BU İL BAĞ EVLƏRİNİN KİRAYƏ QİYMƏTLƏRİ ÖTƏN İLLƏRLƏ MÜQAYİSƏDƏ DAHA YÜKSƏKDİR**

### "Bəzi villalar personalı ilə verilir"

F.Xəlilovun sözlərinə görə, qiymətlərə təsir edən ikinci mühüm amil Bakı ətrafında həyata keçirilən iri yaşayış və istirahət layihələridir: "Həmin layihələr çərçivəsində həm mənzillər, həm də villalar kirayə bazarına çıxarılır. Eyni zamanda, bu ərazilərdə yaradılan geniş infrastruktur onların cəlbediciliyini artırır və tələbatın yüksəlməsinə səbəb olur. Hazırda Bakı və ətraf ərazilərdə istirahət məqsədilə kirayəyə verilən bağ evləri və villaların qiyməti obyektin yerləşməsindən, dənizə yaxınlığından, hovuzunun olub-olmamasından, eləcə də evin villa, "A-frame" və ya klassik həyət evi tipində olmasından asılı olaraq dəyişir. Bu tip obyektlərin aylıq kirayə haqqı təxminən 3 min manatdan 30 min manata qədərdir. Bəzi villalar bağban, texniki xidmət işçiləri və digər xidmət personalı ilə birlikdə təklif olunur ki, bu da qiymətə təsir edən amillərdən biridir".



Firdovsi Xəlilov



Anar Nəsirov

### Villanı üç aylıq müqavilə ilə götürsəniz...

Əmlak eksperti bildirir ki, qiymətə təsir göstərən amillərdən biri də obyektin hansı müddətə icarəyə götürülməsidir: "Məsələn, aylıq kirayə haqqı 10 min manat olan villanı üç və ya dörd aylıq müqavilə ilə götürdükdə daha sərfəli şərtlər əldə etmək mümkündür. Nəzərə almaq lazımdır ki, bu obyektlərin böyük əksəriyyəti mövsümi xarakter daşıyır. Buna görə də yay aylarında qiymətlər daha yüksək olur".

Villaları və bağ evlərini icarəyə götürərkən diqqət edilməli məqamlardan danışan ekspert qeyd edir ki, obyekt təhvil alınarkən onun vəziyyəti mütləq sənədləşdirilməlidir: "Xüsusilə villaların icarəsi zamanı həm icarəyə verən, həm də icarəyə götürən tərəf obyektin vəziyyətini foto və video çəkilişlərlə qeydə almalı, təhvil-təslim aktı tərtib etməlidir. İnventar siyahısının hazırlanması da məqsədəuyğundur. Çünki kirayə müddəti başa çatdıqdan sonra inventarla bağlı tərəflər arasında mübahisələr yarana bilər. Bundan əlavə, tərəflərin hüquq və öhdəliklərini aydın şəkildə müəyyən edən yazılı müqavilənin bağlanması gələcəkdə yarana biləcək problemlərin qarşısının alınması baxımından vacibdir".

### "QİYMƏT ARTIMI SON İLLƏRDƏ DAVAMLI XARAKTER ALIB"

Əmlak eksperti Anar Nəsirov deyir ki, Bakıətrafı qəsəbələrdə kirayə bazarında qiymət artımı son illərdə davamlı xarakter alıb: "2019-cu ildən etibarən Bakı və ətraf qəsəbələrdə kirayə mənzillərin qiymətində mütəmadi artım müşahidə olunur. Tələbin artması qiymətlərə birbaşa təsir göstərir və bu tendensiya 2026-cı ildə də davam edir. Xüsusilə istirahət üçün əlverişli şəraitə malik qəsəbələrdə bağ evlərinin qiymətində artım müşahidə olunur".

Mütəxəssis bildirir ki, vətəndaşların əksəriyyəti yay mövsümündə qiymətlərin daha da yüksələcəyini nəzərə alaraq bağ evlərini əvvəlcədən, əsasən mart-aprel aylarından bron edir. Bu isə tələbatın daha erkən formalaşmasına səbəb olur: "Ən yüksək qiymətlər dənizə yaxın və istirahət üçün əlverişli ərazilərdə müşahidə edilir. Ev sahilə nə qədər yaxın yerləşirsə, kirayə haqqı da bir o qədər yüksək olur".

# BTC-NİN OPERATORLUĞU SOCAR-A TƏHVİL VERİLİB




BTC üzrə operatorluğun, eləcə də BTC və CQBK sistemləri üzrə vahid operatorluğun SOCAR-a keçməsi Azərbaycanın enerji sektorunun inkişafında növbəti mühüm mərhələdir.

Səngəçal Terminalında Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac boru kəmərinin 20 illiyi, BTC üzrə operatorluğun və BTC ilə Cənubi Qafqaz Boru Kəməri (CQBK) sistemləri üzrə vahid operatorluğun Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR) təhvil verilməsi münasibətilə tədbir keçirilib. Bu barədə "Report"a SOCAR-dan məlumat verilib.

### TƏHLÜKƏSİZLİK, ETİBARLILIQ VƏ ƏMƏLİYYAT MÜKƏMMƏLLİYİ

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli tədbirdə çıxış edərək ötən 20 il ərzində BTC-nin uğurlarından, layihənin beynəlxalq əhəmiyyətindən, şirkətin uzunmüddətli səmərəli operatorluq rolundan bəhs edib, SOCAR-ın boru kəmərinin istismarı zamanı təhlükəsizlik, etibarlılıq və əməliyyat mükəmməlliyi sahəsində mövcud yüksək standartları uğurla davam etdirəcəyinə əminliyini ifadə edib, SOCAR və digər tərəfdaşlarla sıx və uzunmüddətli əməkdaşlığın daha da möhkəmləndiriləcəyini bildirib.

### ENERJİ SEKTORUNUN İNKİŞAFINDA NÖVBƏTİ MÜHÜM MƏRHƏLƏ

BTC boru kəmərinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın müasir enerji strategiyasının ən mühüm nailiyyətlərindən biri olduğunu söyləyən SOCAR-ın prezidenti Rövşən Nəcəf BTC-nin Xəzər regionunu Qara dəniz hövzəsi vasitəsilə Aralıq dənizi ilə birləşdirən strateji enerji dəhlizi formalaşdırdığını və Xəzərin enerji resurslarının beynəlxalq bazarlara çıxış modelini əsaslı şəkildə dəyişdirdiyini qeyd edib. BTC üzrə operatorluğun, eləcə də BTC və CQBK sistemləri üzrə vahid operatorluğun SOCAR-a keçməsinin Azərbaycanın enerji sektorunun inkişafında növbəti mühüm mərhələ olduğunu deyən R. Nəcəf bu mühüm hadisənin SOCAR-ın otuz ildən artıq müddətdə formalaşdırdığı zəngin əməliyyat təcrübəsini və peşəkar imkanlarını nümayiş etdirdiyini vurğulayıb.



### PEŞƏKAR BİLİK VƏ ƏMƏLİYYAT İMKANLARININ MƏNTİQİ NƏTİCƏSİ

İqtisadiyyat nazirinin müavini Anar Axundov çıxışında son 20 il ərzində BTC boru kəmərinin Azərbaycanın enerji sektorunun inkişafı ilə yanaşı, ölkəmizin dayanıqlı iqtisadi tərəqqisinə və regional əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfə verdiyini bildirib. bp-nin son iki onillik ərzində BTC boru kəmərinin operatoru qismində uğurlu fəaliyyətini qeyd edən nazir müavini boru kəməri üzrə operatorluğun SOCAR-a keçməsinin Azərbaycanda uzun illər ərzində beynəlxalq tərəfdaşlıq mühitində formalaşmış peşəkar bilik və əməliyyat imkanlarının məntiqi nəticəsi olduğunu vurğulayıb.

BTC-nin regional əməkdaşlığın və etibarlı beynəlxalq tərəfdaşlığın rəmzi kimi xüsusi əhəmiyyət daşıdığını söyləyən energetika nazirinin müavini Kamal Abbasov layihənin dəyərinin təkcə ötən 20 il ərzində nəql olunan neft həcmləri ilə ölçülmədiyini, eyni zamanda region ölkələri, şirkətlər və xalqlar arasında formalaşdırdığı etimad, əməkdaşlıq və uzunmüddətli tərəfdaşlıq münasibətlərində də öz əksini tapdığını diqqətə çatdırıb.

### "SƏMƏRƏLİ İSTİSMARIN TƏMİN OLUNMASI ƏSAS PRİORİTETDİR"

bp-nin Boru kəmərləri əməliyyatları üzrə meneceri, veteran neftçi Elxan Sultanov isə çıxışında BTC layihəsinin ilk dövrlərindən etibarən bu prosesin iştirakçısı olduğunu bildirərək, bu strateji layihə üzrə operatorluğun SOCAR-a keçdiyi mərhələdə onun uğurlu fəaliyyətinə töhfə verməyə davam etməkdən məmnunluğunu ifadə edib. E. Sultanov boru kəmərinin təhlükəsiz, etibarlı və səmərəli istismarının təmin olunmasının əsas prioritetlərdən olduğunu bildirib.

Sonra R. Nəcəf və C. Kristofoli BTC üzrə operatorluğun və BTC ilə CQBK sistemləri üzrə vahid operatorluğun SOCAR-a təhvil verilməsini ifadə edən rəmzi idarəetmə düyməsini sıxıblar.



# Xankəndi və Ağdərədə yarımstansiyalar inşa edilir

"AzərEnerji" ASC Xankəndi şəhərində 110/35/10 kV-luq "Xankəndi-2" və Ağdərə rayonunda 110/35/10 kV-luq "Həsənriz" yarımstansiyalarını sökərək ən müasir rəqəmsal texnologiyalar əsasında yenidən inşa edir. Bu barədə "Report"a "AzerEnerji"dən məlumat verilib.

Bildirilib ki, "Xankəndi-2" yarımstansiyasının tikintisi Xankəndi şəhərinin, ətraf yaşayış məntəqələrinin və bütün mühüm infrastruktur obyektlərinin daha etibarlı, dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təminatına imkan verəcək. Ağdərə rayonunda tikilən "Həsənriz" yarımstansiyası isə rayonun istehlakçılarının, o cümlədən sənaye müəssisələrinin enerji təchizatının etibarlılığını artırmaqla yanaşı, "Sərsəng" və bölgədə fəaliyyət göstərən digər su elektrik stansiyalarında istehsal olunan enerjinin ölkənin enerji sisteminə təhlükəsiz və fasiləsiz ötürülməsini təmin edəcək.

"AzərEnerji"nin İctimaiyyətlə əlaqələr mərkəzinin rəisi Teymur Abdullayevin sözlərinə görə, "Xankəndi-2" və "Həsənriz" yarımstansiyalarında kommutasiya avadanlıqlarının məsafədən idarə olunması və texnoloji göstəricilərin real vaxt rejimində ötürülməsi üçün yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulacaq. Bu sistemlər "AzərEnerji"nin Mərkəzi SCADA idarəetmə platformasına inteqrasiya ediləcək. Qeyd edək ki, bundan əvvəl "AzərEnerji" tərəfindən "Xankəndi-1" yarımstansiyası tamamilə yenidən qurularaq qapalı tipli yarımstansiya kimi ötən ilin dekabr ayında istismara verilib. Yeni layihələrin tamamlanması ilə "AzərEnerji"nin azad edilmiş ərazilərdə inşa etdiyi yarımstansiyaların sayı 16-ya çatacaq. Bununla yanaşı, bölgədə artıq 38 su elektrik stansiyası tikilərək istismara verilib, hazırda isə əlavə 8 su elektrik stansiyasının tikintisi davam etdirilir.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 859
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# MÖVSÜMİ MEYVƏLƏRİ BAHALAŞDIRAN SƏBƏBLƏR

**Bu il bazarlarda mövsüm meyvələrinin qiyməti yüksəkdir. Ekspertlər bahalaşmanı məhsul itkisi, əlverişsiz hava şəraiti və ixracın artması ilə izah edirlər.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Yay gəldi, amma gözlənilən ucuzluq gəlmədi. Əksinə, bu il bazarlarda mövsüm meyvələrinin qiyməti alıcıları sözün əsl mənasında təəccübləndirir. Piştaxtaları bəzəyən gilasın kiloqramı 18, alçanın 12, moruğun isə 18 manata qədər yüksəlib. Ənənəvi qış hazırlıqlarına, xüsusən də mürəbbə qaynatmağa başlayan ailələr bu il xərclərini yenidən hesablamaq məcburiyyətində qalıblar. Halbuki, hər kəs yerli məhsulun bazara kütləvi daxil olması ilə qiymətlərin enəcəyinə ümid edirdi. Bəs, görəsən, bolluq mövsümündə bu bahalaşmanın kökündə nə dayanır?

### "BÖYÜK ALÇA BAĞLARI DA GÖZLƏNİLƏN NƏTİCƏNİ VERMƏDİ"

Aqrar-ekspert Eldar Hüseynovun sözlərinə görə, mövsümi meyvələrin qiymət artımının əsas səbəblərindən biri hava şəraitinin yağıntılı keçməsidir: "Builki qədər aramsız yağıntı uzun müddətdir müşahidə olunmurdu. Kəskin yağıntılar bitkilərdə xəstəlikləri artırdı. Hər gün yağan yağış, leysan və dolu səbəbindən əkinçilər və fermerlər xəstəliklərlə mübarizə apara bilmədilər. Nəticədə, əvvəlki illərlə müqayisədə bu il məhsuldarlıq təxminən 80 faiz azaldı. Azərbaycanı alça ilə əsasən Göyçay, Ucar və Zərdab rayonları təmin edirdi. İndi Yevlaxda da böyük bir plantasiya salınıb. Mövsümün sonunda isə bazara Quba alçası daxil olurdu. Lakin bu il Göyçayda yaxşı alça olmadı. Saatlıda yerləşən böyük alça bağları da gözlənilən nəticəni vermədi. Bu səbəblərdən alça kəskin şəkildə bahalaşdı. Artıq alça mövsümü demək olar ki, bitib. Amma ucuzlaşma yalnız çox dəymiş, növü bilinməyən, ağarmış və ya emala gedən alçalarda müşahidə edilir. Keyfiyyətli alçanın ucuzlaşması gözlənilmir".

E.Hüseynov bildirdi ki, bu il tozlanma dövründə yağıntının çox olması səbəbindən gilas ağacları məhsul tuta bilmədi. Eyni zamanda, Azərbaycandan Rusiya bazarına kütləvi şəkildə gilas ixrac edildiyi üçün daxili bazara əsasən ikinci və üçüncü növ gilaslar qalırdı. Birinci növ gilas isə daxili bazara çıxarılanda həddindən artıq baha olurdu: "Lakin son günlərdə Moldovadan Moskvaya və Rusiyanın digər şəhərlərinə kütləvi şəkildə gilasın daxil olması orada qiymətləri kəskin şəkildə aşağı salıb. Bu səbəbdən daxili bazarda da gilasın qiymətində qismən ucuzlaşma müşahidə olunur. Yaxın vaxtlarda Xerson gilası da bazara daxil olacaq. Xerson gilası gəldikdən sonra qiymətlər tədricən düşəcək. Hazırda isə ölkədə gilas ümidi yalnız Şəmkir, Tovuz, Qazax və Ağstafa zonasına qalıb. Ağ gilasın isə bir-iki həftəyə kəskin bahalaşması ehtimal olunur. Çünki bu il Quba və Qusarda ağ gilas demək olar ki, yoxdur. Aramsız yağışlar şimal bölgəsinin kənd təsərrüfatına dəhşətli dərəcədə ziyan vurub. Hazırda bazarda "Quba gilası" adı altında satılan ağ gilasların əksəriyyəti məhz qərb bölgəsindən gətirilir".

> **"İntensiv yağışlar əkinçilik sahəsinə müsbət təsir göstərsə də, eyni sözləri bağçılığa aid etmək mümkün deyil"**

### "GİLAS, ÇİYƏLƏK, ŞAFTALI VƏ NEKTARİNİN QİYMƏTİNDƏ ENMƏ GÖZLƏNİLİR"

Ekspertin fikrincə, çiyələk ilk çıxanda Rusiyaya böyük həcmdə ixrac edilirdi. Bu, əsasən istixanalarda yetişdirilən çiyələklər idi. Daha sonra açıq sahə çiyələyinin bazara daxil olması, eyni zamanda Rusiyanın öz yerli məhsulunun bazara çıxması orada qiymətləri saldı və bu, avtomatik olaraq bizdə də çiyələyin ucuzlaşmasına səbəb oldu: "Əriyə gəldikdə, bu il Ermənistanda və Türkiyədə məhsul bol olsa da, Azərbaycan və İranda dəhşətli səviyyədə qıtlıqdır. Tərtər və Goranboy rayonlarında ərik məhsuldarlığı ötən illə müqayisədə 60 faiz azdır. Yığılan məhsulun yalnız keyfiyyətli olanları soyuducu anbarlara yığılır, zəifləri isə daxili satışa çıxarılır. Bununla belə, Naxçıvan əriyinin bazara daxil olması daxili tələbatı müəyyən qədər tənzimləyir".

E.Hüseynovun sözlərinə görə, ölkəmizin meyvə-tərəvəz sektorunun ən böyük alıcısı Rusiyadır. Orada qiymətlər yüksək olanda, daxili bazarda da avtomatik olaraq yüksəlir: "Son günlərdə Moskva bazarlarında baş verən xoşagəlməz hadisələrdən sonra məhsullara tələbat və alıcılıq qabiliyyəti azalıb. Tacirlər mal göndərməyə qorxurlar. Bütün bunlar daxili bazarda bəzi məhsulların kəskin ucuzlaşmasına gətirib çıxarır. Növbəti həftələrdə gilas, çiyələk, şaftalı (o cümlədən yastı şaftalı) və nektarinin qiymətində enmə olacaq. Albalının da qiyməti kəskin ucuzlaşacaq. Çünki hazırda İrandan Azərbaycana 12 yük maşını albalı gəlir. Məsələn, hazırda daxili bazarda birinci növ yerli albalının pərakəndə satış qiyməti 12-13 manatdırsa, İrandan gələn məhsulun maya dəyəri 4 manatdır. Paylanma qiyməti 5 manat olan məhsul bazarda 7-8 manata satılacaq".

### "MƏHSULDARLIQ AŞAĞI DÜŞDÜKDƏ QİYMƏT YÜKSƏLİR"

İqtisadçı Xalid Kərimli isə düşünür ki, intensiv yağışlar əkinçilik sahəsinə müsbət təsir göstərsə də, eyni sözləri bağçılığa aid etmək mümkün deyil. Yağıntıların ağacların çiçəkləmə və tozlanma kimi erkən inkişaf mərhələlərinə təsadüf etməsi ciddi fəsadlar yaradır: "Hava şəraitinin bu cür keçməsi fermerlərin aqrotexniki qulluq, xüsusən də dərmanlama xərclərini kəskin artırır. Çünki ağaclara çilənən preparatların yağış suları ilə yuyulması yenidən dərmanlama zərurəti yaradır".

X.Kərimli bildirdi ki, yağıntıların digər mənfi təsiri isə məhsulun əmtəə görünüşü ilə bağlıdır. İntensiv yağışlar gilas və alça kimi erkən yetişən meyvələrdə çatlamaya və keyfiyyət itkisinə səbəb olaraq fermerin ziyanını daha da artırır: "Bütün bunlara rəğmən, qeyd olunan proseslərin ölkədə kəskin meyvə-tərəvəz qıtlığına səbəb olacağını demək doğru deyil. Ölkə ərazisinin fərqli iqlim qurşaqlarında yerləşməsi səbəbindən yağıntıların düşmə dövrü və intensivliyi regionlar üzrə dəyişir. Buna görə də qlobal qıtlıqdan deyil, sadəcə müəyyən meyvə növlərində məhsuldarlığın aşağı düşməsi fonunda bazarda təklifin azalmasından danışmaq olar. Xüsusilə erkən yetişən alça, gilas, ərik, bəzi şaftalı növləri, eləcə də alma və armud kimi məhsullarda təklif azlığı müşahidə edilə bilər ki, bu da qiymətlərin bazarda nisbətən baha formalaşması ilə nəticələnib".



Eldar Hüseynov

Xalid Kərimli

# SÜD EMALI SƏNAYESİNDƏ YENİ MƏRHƏLƏ

**Aqrar sahədə emal müəssisələrinin yaradılmasına ciddi ehtiyac var. Bu tip müəssisələr aqrar məhsulların dəyərini artırır və bazarda daha dayanıqlı gəlir yaradır.**

SEVİNC ABBASOVA

İsmayıllı rayonunun İvanovka kəndində müasir süd emalı və pendir zavodunun tikilməsi nəzərdə tutulur. İnvestisiya dəyəri on milyon manat olan layihə Dağlıq Şirvan iqtisadi rayonunda aqrar sənayenin inkişafına yeni impuls verməklə yanaşı, ölkənin süd məhsulları bazarında daha dayanıqlı və rəqabətqabiliyyətli istehsal zəncirinin formalaşmasını hədəfləyir. Layihənin əsas məqsədi regionda istehsal olunan südün yerində emalını təmin etmək, əlavə dəyər yaratmaq və xammalın itkisiz şəkildə sənaye məhsuluna çevrilməsidir.

Müəssisədə geniş çeşiddə süd və pendir məhsullarının istehsalı nəzərdə tutulur. Buraya kərə yağı, kəsmik, qaymaq kimi ənənəvi məhsullarla yanaşı, müxtəlif texnologiyalarla hazırlanan sərt və yarı-sərt pendir növləri, həmçinin milli istehlak vərdişlərinə uyğun xüsusi pendir çeşidləri daxildir. Eyni zamanda, Avropa tipli pendir məhsullarının istehsalı da planlaşdırılır.

Maraqlıdır, belə layihələrin potensialı varmı? Tələbat necədir? İxrac imkanları nə qədərdir?

Azərbaycanda pendir bazarı son illərdə tədricən genişlənən istehlak həcmi ilə xarakterizə olunur. Urbanizasiya, supermarket şəbəkələrinin artması və qida mədəniyyətinin dəyişməsi nəticəsində pendirə tələbat stabil şəkildə yüksəlir. Xüsusilə otel və restoranlar sektoru, gənc istehlakçı qrupları daha keyfiyyətli və çeşidli məhsullara üstünlük verir.

Bununla yanaşı, bazarın strukturunda hələ də müəyyən problemlər qalmaqdadır. Sənaye istehsalı ilə ənənəvi kiçik təsərrüfat istehsalı arasında keyfiyyət fərqləri mövcuddur, brendləşmə zəifdir və ixrac yönümlü istehsal kifayət qədər inkişaf etməyib. Bu səbəbdən Azərbaycan pendir bazarı əsasən daxili tələbatın ödənilməsinə yönəlib və yüksək əlavə dəyərli məhsullar üzrə potensial tam reallaşmayıb.

### SİSTEMLİ ADDIMLARA EHTİYAC VAR

İqtisadçı Rauf Qarayev kənd təsərrüfatı və emal sənayesində yeni müəssisələrin yaradılmasını müsbət addım kimi qiymətləndirsə də, bu prosesin təkbaşına sektorun əsas problemlərini həll etmədiyini bildirib. Onun sözlərinə görə, süd emalı zavodlarının və ümumilikdə aqrar emal müəssisələrinin inşası yalnız daha geniş islahatlar və ardıcıl tədbirlər zənciri ilə birlikdə real iqtisadi nəticə verə bilər.

İqtisadçı qeyd edib ki, kənd təsərrüfatında istehsalın artırılması üçün paralel şəkildə bir neçə əsas istiqamət üzrə sistemli addımlar atılmalıdır. Buraya fermaların yaradılması, damazlıq heyvanların sayının artırılması, məhsuldarlığı yüksəldən innovativ texnologiyaların tətbiqi və istehsal infrastrukturunun müasirləşdirilməsi daxildir. Onun fikrincə, müasir heyvandarlıq təsər-rüfatları yalnız fiziki infrastrukturdan ibarət olmamalı, eyni zamanda avtomat-laşdırılmış idarəetmə sistemləri, mikroiqlim nəzarəti və texnoloji avadanlıqlarla təchiz olunmalıdır.

İqtisadçı eyni zamanda, baytarlıq xidmətlərinin vəziyyətinə də diqqət çəkib və bildirib ki, müasir heyvandarlıq sistemlərinin effektivliyi yalnız texnologiya ilə deyil, güclü baytarlıq infrastrukturunun mövcudluğu ilə təmin oluna bilər. Ekspert hesab edir ki, innovativ texnologiyaların tətbiqi ilə yanaşı, dərman təminatı, profilaktik nəzarət və elmi-texniki dəstək sistemi də paralel şəkildə inkişaf etdirilməlidir. Əks halda, istehsal zəncirinin ayrı-ayrı həlqələri arasında uyğunsuzluq yaranır və ümumi səmərəlilik aşağı düşür.



## QEYRİ-SABİT BAZAR İSTEHSALÇIYA PROBLEM YARADIR

Kənd təsərrüfatı məsələləri üzrə ekspert Mircavid Həsənov aqrar sektorda emal sənayesinin inkişafını strateji prioritet kimi qiymətləndirir. Onun sözlərinə görə, hazır məhsulun satışı xammal satışından daha yüksək iqtisadi səmərə verir: "Südün birbaşa satışında fermerlər çox vaxt az qazanırlar, hətta bəzi hallarda məhsulun tez xarab olması səbəbindən onun satışı mümkün olmur. Lakin südün pendir, yağ və digər emal olunmuş məhsullara çevrilməsi əlavə dəyəri artırır və bazarda daha dayanıqlı gəlir yaradır".

Ekspertin fikrincə, emal müəssisələrinin yaradılması təkcə İvanovka kimi konkret regionlarla məhdudlaşmamalı, ölkənin bütün bölgələrini əhatə etməlidir. Bu tip layihələr xammalın dəyərsiz satışının qarşısını alaraq daha yüksək gəlirli istehsal modelinə keçidi təmin edir.

M.Həsənov xüsusilə vurğulayıb ki, emal sənayesinin inkişafı kənd təsərrüfatı istehsalçıları üçün də stimullaşdırıcı rol oynayır. Onun sözlərinə görə, bazar və emal infrastrukturu olmadan istehsalın davamlılığı mümkün deyil. Müasir zavodların fəaliyyəti fermerlər üçün sabit satış kanalı yaradır və onları daha planlı istehsala yönləndirir.



Rauf Qarayev

Mircavid Həsənov

## BU SAHƏDƏKİ EMAL MÜƏSSİSƏLƏRİNİN SƏMƏRƏLİLİYİ ÜÇÜN ƏSAS ŞƏRT

Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli isə bildirib ki, ölkənin süd və süd məhsullarına olan tələbatının böyük hissəsi hələ də idxal hesabına ödənilir. Bu vəziyyət daxili istehsal zəncirində, xüsusilə xammal təminatı mərhələsində struktur problemlərin mövcudluğunu göstərir. İqtisadçı hesab edir ki, süd emalı zavodlarının iqtisadi səmərəliliyi birbaşa xammal bazasının həcmi və davamlılığı ilə bağlıdır. Onun sözlərinə görə, kifayət qədər süd istehsalı təmin olunmadan iri emal komplekslərinin yaradılması gözlənilən nəticəni verməyə bilər. Bu səbəbdən, emal sektorunun inkişafından əvvəl heyvandarlıq təsərrüfatlarının gücləndirilməsi strateji prioritet olmalıdır.



Akif Nəsirli



### SUBSİDİYALAR VƏ STİMULLAŞDIRICI MEXANİZMLƏR

İqtisadçı qeyd edib ki, inkişaf etmiş ölkələrin təcrübəsində südverən heyvanlara görə birbaşa subsidiyalaşdırma mexanizmləri geniş tətbiq olunur. Avropa İttifaqı ölkələrində hər südverən inəyə görə verilən dəstək fermerlərin həm istehsalını stimullaşdırır, həm də bazarda sabitliyi qoruyur. Nəsirli hesab edir ki, Azərbaycanda da damazlıq heyvandarlığın inkişafı və məhsuldarlığın artırılması üçün oxşar subsidiyalaşma mexanizmləri tətbiq edilməlidir.

# ƏNƏNƏVİ SU SAYĞACLARI TARİXƏ QOVUŞUR

Azərbaycanda su təchizatının rəqəmsallaşdırılması mərhələsi başlayır. Yeni nəsil sayğaclar və SCADA sistemi vasitəsilə su sərfiyyatına nəzarətin gücləndirilməsi, qəzalara operativ müdaxilə və itkilərin minimuma endirilməsi hədəflənir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda su infrastrukturunun müasirləşdirilməsi və rəqəmsal idarəetməyə keçid istiqamətində mühüm mərhələ başlayır. Su itkilərinin minimuma endirilməsi, qəzalara operativ müdaxilənin təmin edilməsi və istehlakın daha dəqiq uçotunun aparılması məqsədilə istismar müddətini başa vurmuş mövcud sayğaclar uzaqdan oxunan yeni nəsil texnologiyalarla əvəz olunacaq. Bu innovativ addım ölkənin su təchizatı zəncirinin mənbədən son istehlakçıya qədər tam avtomatlaşdırılmasını hədəfləyən genişmiqyaslı layihələrin əsas tərkib hissəsidir. “Su infrastrukturu üzrə icra etdiyimiz layihələrin hamısında SCADA həllərinin tətbiqi nəzərdə tutulur”, - deyə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədr müavini İlham Bayramov deyib. O qeyd edib ki, bu prosesin son mərhələlərindən biri də sayğac sistemlərinin tam elektronlaşdırılmasıdır: “Hazırda əsasən mexaniki və smart tipli sayğaclardan istifadə olunur. Mövcud sayğacların əksəriyyətinin istismar müddəti başa çatıb. Biz artıq uzaqdan oxunan və idarə olunan yeni nəsil sayğaclara keçid edirik”.

### “İNSAN AMİLİ ARADAN QALXACAQ”

İnformasiya Texnologiyaları üzrə Mühəndis-Tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının eksperti Bəhruz Əliyev sözlərinə görə, uzaqdan oxunan sayğaclara keçid rəqəmsallaşma baxımından zəruri və zamanında atılmış addımdır: “Yeni sistemin əsas məqsədi su mənbəyindən son istehlakçıya qədər olan idarəetmə zəncirini tam avtomatlaşdırmaqdır. Burada hədəf sadəcə köhnə sayğacları yeniləmək deyil, əsas vəzifə su itkilərini azaltmaq, göstəriciləri dəqiq toplamaq, şəbəkədəki təzyiqi idarə etmək və qəzalara daha operativ reaksiya verməkdir. Sirr deyil ki, hazırda dünyada su təsərrüfatı sahəsində ən ciddi problemlər məhz gecikmiş məlumatlar, sızmalar və itkilərlə bağlıdır. Bu prosesdə tətbiq edilən SCADA sistemi nasos stansiyalarını, anbarları, xətlərdəki təzyiqi, suyun axınını, habelə qəza və nasazlıq siqnallarını real vaxt rejimində izləməyə imkan verir. Ənənəvi idarəetmədən fərqli olaraq, SCADA vasitəsilə məlumatların mərkəzi sistemə avtomatik ötürülməsi insan amilini aradan qaldırır və qərarların daha çevik qəbul olunmasına şərait yaradır”.





### “VƏTƏNDAŞLAR ÜÇÜN GENİŞ RƏQƏMSAL İMKANLAR AÇIR”

B.Əliyevin fikrincə, yeni sayğacların əsas üstünlükləri göstəricilərin mərkəzə avtomatik ötürülməsi, insan xətalarının minimallaşdırılması, borc və istehlak məlumatlarının dəqiq hesablanması, sızma və qeyri-adi sərfiyyatın dərhal aşkarlanması və abonentin öz istehlakını onlayn şəkildə izləyə bilməsidir: “Yeni texnologiyalar vətəndaşlar üçün geniş rəqəmsal imkanlar açır. Abonentlər mobil tətbiq vasitəsilə gündəlik su sərfiyyatını görə, qəfil artımı vaxtında təyin edə, ödənişləri tənzimləyə, şikayət və müraciətləri rəqəmsal formatda izləyə bilərlər. Dünya təcrübəsi göstərir ki, bu cür sistemlər sayəsində sərfiyyat normadan kənara çıxdıqda və ya şəbəkədə təzyiq dəyişdikdə mərkəzi sistemdə anında xəbərdarlıq yaranır. Nəticə etibarilə, həm vətəndaş üçün daha dəqiq və ədalətli hesablama sistemi formalaşır, həm də dövlət səviyyəsində su ehtiyatlarının qorunması gücləndirilir”.





## “Qurumlara olan etimad artacaq”

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc da düşünür ki, yeni tətbiq olunacaq su sayğacları müasir beynəlxalq standartlara cavab verən, kənar şəxslərin qanunsuz müdaxilələrini tamamilə məhdudlaşdıran, habelə uzaqdan ölçmə və rəqəmsal nəzarət imkanlarına malik innovativ vasitədir: “Bu mükəmməl sistem həm böyük həcmli su itkisinin qarşısının alınması, həm də istənilən qəza anında şəbəkəyə dərhal və təcili müdaxilənin təmin edilməsi kimi mühüm üstünlüklərə malikdir. İndiyə qədər mövcud olan ənənəvi sayğac sistemlərindəki texniki qüsurlar, hesablama zamanı yaranan çətinliklər və bunun nəticəsində ortaya çıxan haqlı vətəndaş narazılıqları məhz bu cür tamamilə yeni idarəetmə sisteminin tətbiqini zəruri edirdi. Sayğac göstəricilərinin mərkəzləşdirilmiş qaydada, uzaqdan oxunmasının təmin olunması və prosesə hər hansı kənar müdaxilələrin qarşısının alınması real su istehlakının həcminin daha dəqiq, şəffaf hesablanmasına gətirib çıxaracaq. Eyni zamanda, ödəniş və vəsaitlərin toplanması proseslərində nəzərəçarpacaq çeviklik yaranacaq. Bütün bu sadalanan müsbət dəyişikliklərin nəticəsi sıravi vətəndaşlarla kommunal xidmət göstərən qurumlar arasında mövcud olan etimad mühitini daha da gücləndirəcək. Abonentlər isə vaxt itkisinə səbəb olan əlavə bürokratik əngəllərdən, hesablaşma zamanı yaranan anlaşılmazlıqlardan və texniki problemlərdən birdəfəlik azad olacaqlar”.

### “İNFRASTRUKTUR QƏZALARININ SAYI KƏSKİN ŞƏKİLDƏ AZALACAQ”

V.Oruc bildirdi ki, rəqəmsal sayğacların kütləvi tətbiqi indiyədək bu sahədə yığılıb qalmış, illərlə həllini gözləyən problemlərin tədricən azalmasına və bütövlükdə aradan qalxmasına xidmət edəcək: “Qlobal su qıtlığı fonunda müasir dövrdə su itkisinin qarşısının maksimum səviyyədə alınması olduqca vacib, hətta strateji əhəmiyyət kəsb edən bir məsələdir. Məhz içməli suya qənaət edilməsi və ondan istifadənin daha səmərəli tənzimlənməsi baxımından, bu texnoloji yeniliyin böyük əhəmiyyəti var. Avtomatlaşdırılmış idarəetmə sayəsində sözügedən sistem həm də infrastruktur qəzalarının sayının kəskin şəkildə azalmasına da öz birbaşa müsbət təsirini göstərəcək. Bununla yanaşı, regionlarda və paytaxt ərazisində ümumi su təchizatı tam normallaşacaq, mərkəzləşdirilmiş nəzarət mexanizmi isə xeyli dərəcədə gücləndiriləcək”.



# CİBİ YANDIRAN EKZOTİK DƏB



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Azərbaycana ekzotik meyvə idxalı kəskin artıb. İlin ilk iki ayında ölkəyə 1,17 milyon dollarlıq ekzotik meyvə daxil olub. Tropik nemətlərə yaranan kütləvi marağın kökündə həm insanların yeni sağlam qidalanma axtarışı, həm də sosial şəbəkələrin diktə etdiyi göstəriş dəbi dayanır.**

Azərbaycan süfrələrində ənənəvi meyvələrlə yanaşı, artıq minlərlə kilometr uzaqdan - Kosta-Rikadan, Tailanddan, Perudan gələn tropik dadlar da özünə yer edir. Bu ilin yanvar-fevral aylarında xarici ölkələrdən 1,17 milyon ABŞ dolları dəyərində 633,5 ton ekzotik meyvə idxal edilib. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə dəyər ifadəsində 20,7%, həcm baxımından isə 2,8% artıb. Hesabat dövründə ölkəyə 493 min dollar dəyərində 407,7 ton ananas, 598,98 min dollar dəyərində 207,5 ton avokado idxal olunub. Eyni zamanda, 73,6 min dollar dəyərində 18 ton quayava, manqo və manqostan, 1 030 dollar dəyərində 110 kiloqram papaya, 130 dollar dəyərində isə 10 kiloqram durian meyvəsi gətirilib. İdxal ölkələrinə gəldikdə, ananas əsasən Kosta-Rika, Çin və Panamadan, avokado Peru, İsrail və Keniyadan idxal olunub. Quayava, manqo və manqostan Braziliya və Perudan, papaya və durian isə Tailanddan tədarük edilib. Rəqəmlərdən də göründüyü kimi, ekzotik meyvələrə tələbat və idxal həcmi getdikcə artır. Bəs bu qəfil sıçrayışın səbəbləri nədir? İdxaldakı artım və bu məhsulların populyarlaşması daha çox sosial şəbəkələrin diktə etdiyi "dəb"lə, yoxsa insanların qida rasionundakı real dəyişikliklə bağlıdır?

### "QEYRİ-RƏSMİ İDXAL DA MÖVCUDDUR"

Ekzotik meyvə biznesi ilə məşğul olan Əşrəf Şıxəliyevin sözlərinə görə, statistik göstəricilər real bazarın yalnız 50%-ni əks etdirir: "Qalan 50% isə əsasən Birləşmiş Ərəb Əmirlikləri və Qətərdən ölkəyə qeyri-rəsmi yolla daxil olan ekzotik meyvələrdir. Belə ki, bu sahədə fəaliyyət göstərən bəzi şirkət nümayəndələri və ya vətəndaşlar turist kimi səyahət edir və qayıdarkən baqajlarında (təqribən 23 kiloqram) ekzotik meyvə gətirirlər. Şəxsi istifadə adı altında gətirilən bu məhsullar heç yerdə qeydiyyata alınmır. Eyni anda 5-10 nəfərin bu üsuldan istifadə etdiyini düşünsək, bir reysdə təxminən 230-300 kiloqram ekzotik meyvənin ölkəyə qeyri-rəsmi daxil olduğunu görərik".



## "Z nəsli"nin sağlam həyat tərzi

Ə.Şıxəliyev bildirdi ki, bazarda müşahidə edilən artımın əsasən iki böyük səbəbi var. Birincisi, ekzotik meyvələr sadəcə "dəb" və ya zövq üçün alınmır. Onların tərkibində elə elementlər var ki, təbiətdəki digər qida məhsullarında tapılmır: "Məsələn, papaya meyvəsinin tərkibindəki "papain" maddəsinin qadın sağlamlığı, xüsusən də hamilələr üçün elmi cəhətdən sübut olunmuş faydaları var. Karambola meyvəsi bədəndə kalsiumu artırır, saç tökülməsinin qarşısını alır və çox vaxt həkimlərin məsləhəti ilə uşaqlar üçün alınır. Cekfrut (jackfruit) hüceyrə səviyyəsində orqanizmə müsbət təsir göstərir və immuniteti gücləndirir. Marakuya isə C vitamini deposu kimi bir çox ənənəvi meyvələri, hətta portağalı belə qabaqlayır. Gətirilməsi xüsusi qadağalarla müşayiət olunan durian dünyanın ən pis qoxulu, kəsiləndə dözülməz iy verən meyvəsidir. Bu səbəbdən əksər aviaşirkətlər təyyarəyə buraxmır. Lakin paradoks ondadır ki, dözülməz qoxusuna baxmayaraq, o, olduqca dadlı və faydalıdır. Araşdırmalar onun xərçəng xəstəliklərinə qarşı mübarizədə xüsusi rolu olduğunu göstərir. Avokadonun populyarlığına gəldikdə, bu meyvənin satışları bütün dünyada olduğu kimi, bizdə də sürətlə artır. Bunun əsas səbəbi "Z nəsli"nin sağlam həyat tərzinə, fitnesə və düzgün qidalanmaya xüsusi önəm verməsidir. Bazarda ən çox satılan ekzotik meyvələrin siyahısına liderliyi məhz avokado edir. Sonrakı yerlərdə isə marakuya, manqostin və rambutan gəlir".

### "60 MANATDAN 3000 MANATA QƏDƏR YÜKSƏLƏ BİLİR"

Müsahibimizin fikrincə, digər mühüm amil isə son zamanlar dəb halına çevrilmiş korporativ hədiyyələrdir. Hədiyyə səbətlərində ekzotik meyvələrdən geniş istifadə olunur: "Xüsusi konseptli hədiyyə səbətlərinin büdcəsi 60 manatdan başlayaraq 2000-3000 manata qədər yüksələ bilir. Qiymət dəyişikliklərinə gəlincə, hər il yay aylarına yaxın ekzotik meyvələrin qiymətində artım müşahidə edilir. Hətta bəzi çeşidləri gətirmək ümumiyyətlə mümkün olmur. Bunun həm logistik səbəbləri (isti hava şəraitində təyyarə ilə daşınma çətinliyi), həm də istehsalçı ölkələrdə həmin meyvələrin mövsümünün bitməsi ilə əlaqəsi var".




## Göstəriş və sosial şəbəkələrin təsiri

İqtisadçı Günay Hüseynova isə bildirdi ki, həcm və dəyər göstəricilərinin paralel yüksəlməməsi, bu cür məhsullara olan tələbatın daha çox "dəb"lə əlaqədar olduğunu göstərir: "Məsələnin iqtisadi tərəfi sırf göstəriş və sosial şəbəkələrin təsiri ilə bağlıdır. Təbii ki, logistikanın inkişafı və istehsalçı ölkələrlə ticari tərəfdaşlıq da burada mühüm faktordur". G.Hüseynovanın sözlərinə görə, bahalı ekzotik meyvələr, başqa sözlə, "premium məhsul" kateqoriyası bazarda ilk növbədə reklam xarakterli yayımlar sayəsində populyarlaşdı: "İlkin idxal mərhələsində bu məhsullar əsasən şou-biznes nümayəndələri və blogerlər tərəfindən təqdim olundu, satış bazarı məhdud idi. Daha sonra isə prosesə həkimlər, diyetoloqlar qoşuldu. Məsələn, "avokado ürək-damar sağlamlığı üçün faydalıdır" kimi açıqlamalarla reklam olundu. Növbəti mərhələdə isə bu meyvələr məşhur qida məhsullarının bir hissəsi kimi (məsələn, "ekzotik meyvəli tost") istehlakçıya təqdim edildi. Alıcını cəlb edən də ilk növbədə süni şəkildə formalaşdırılmış bu maraq oldu".

### "ALTERNATİV BAZARLAR DA QITDIR"

İqtisadçının fikrincə, bu məhsullar üzrə alternativ bazarlar da qıtdır. O səbəbdən kiloqramı 200-300 manat olan məhsul ədədlə 10-17 manata satılır: "Bu tendensiyanın uzunmüddətli, yoxsa qısamüddətli olacağına gəldikdə, hesab edirəm ki, bu, müvəqqəti xarakter daşıyır. Yerli olmayan və kütlənin büdcəsinə tam uyğun gəlməyən bir məhsul nə qədər uzun müddət reklam olunsa da, davamlı ola bilməz. Bir zamanlar ananas da eyni kateqoriyada idi. İstehlakçılar onu əsasən bayram ərəfəsində alırdılar, indi isə o "dəb" sıradan çıxıb və ananas daha adi, əlçatan məhsula çevrilib".



# KEÇMİŞLƏ GƏLƏCƏYİN YANAŞI YAŞADIĞI ŞƏHƏR

**Çin qədim tarixi ilə fəxr edən, eyni zamanda texnologiyanın imkanlarından maksimum istifadə edən ölkədir. Burada minillik tarixin, imperator saraylarının kölgəsində robotlar işləyir, qədim çay mərasimləri ilə yanaşı, süni intellekt həlləri tətbiq olunur.**







TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



Təyyarə Pekin Beynəlxalq Hava Limanına enərkən pəncərədən seyr etdiyim sayrışan rəngbərəng işıqların mənzərəsi ilk baxışdan dünyanın digər böyük şəhərlərindən elə də fərqlənmir. Ancaq terminaldan çıxan kimi tamam fərqli - öz qaydaları, ritmi və dünyası olan bir ölkə ilə üz-üzə qaldığını hiss edirsən. Bir az sonra anlayırsan ki, həqiqətən də bu ölkəyə səfər edərkən bütün səyahət tarixçəni yenidən başlamalısan...

**UZAQ VƏ ƏLÇATMAZ OLMAYAN ÖLKƏ**

Azərbaycanla Çin arasında vizasız rejimin tətbiqi iki ölkə arasındakı əlaqələri xeyli canlandırıb. AZAL-ın birbaşa uçuşları isə yeddi saatlıq məsafəni sanki “yaxınlaşdırıb”. Çin artıq azərbaycanlılar üçün uzaq və əlçatmaz ölkə deyil. Turist kimi gedənlərin axını hələlik çox olmasa da, fərqli təcrübə axtaran insanlar bu məsafəni həvəslə qət edir. Yemək və nəqliyyatın, gündəlik xərclərin nisbətən ucuzluğu, Böyük Çin Səddi, “Qadağan şəhər”, “Cənnət məbədi”, “Tiananmen Meydanı” kimi min illik tarixi olan yerlərin çoxluğu, üstəlik təhlükəsiz ölkə olması indi dünya turistlərini Çinə cəlb edir.

Ancaq digər turistik məkanlarla müqayisədə bu nəhəng ölkəyə səyahət edərkən öncədən texniki hazırlıqlar lazım gəlir. İnternet məhdudiyyətləri olduğundan elə Bakıda eSim, VPN tətbiqləri yükləməli, ya rouming açmalı və ya yerli internet paketi almalısan. Əks halda, burada dünyanın böyük hissəsində gündəlik həyatın ayrılmaz hissəsinə çevrilmiş “Google”, “Gmail”, “YouTube”, “Instagram” və digər beynəlxalq platformalardan məhrum olacaqsan.



**HAVA LİMANINDAN BAŞLAYAN TƏCRÜBƏ**

Beləliklə, elə hava limanının içərisində ilk texnoloji təcrübəmiz başlayır. Pekində taksi sifariş etməyin müəyyən çətinlikləri var. Hərçənd əlində çamadan görən kimi yaxınlaşıb qiyməti birə beş qaldıran taksi sürücüləri də az deyil. Rəsmi taksilər xeyli ucuz olduğundan biz “Alipay” tətbiqi üzərindən “Didi” proqramı ilə taksi sifariş edirik. Sistem yerləşdiyimiz nöqtənin fotosunu yükləməyi tələb edir. Bir neçə dəqiqə sonra sürücü böyük izdihamın içərisindən bizi axtarıb tapır. Hotelə çatanda isə nağd yuan (Çin pulu) götürməkdən imtina edir: ödəniş “Alipay”lə olmalıdır.

**ROBOTLAR, DİLƏNÇİLƏR, DİL BARYERİ**

Çin qədim tarixi ilə fəxr edən, eyni zamanda texnologiyanın imkanlarından maksimum istifadə edən ölkədir. Burada minillik tarixin, imperator saraylarının kölgəsində robotlar işləyir, qədim çay mərasimləri ilə yanaşı, süni intellekt həlləri tətbiq olunur. Bir tərəfdə əsrlər boyu yaşayan məbədlər, digər tərəfdə isə şüşədən və metaldan inşa edilmiş futuristik göydələnlər yüksəlir.





Pekinin başqa bir siması isə qədim hutonqlarda üzə çıxır: dar küçələr, bir mərtəbəli evlər, həyətlərdə qurudulan paltarlar, nizamsızlıq, küçədə majong oynayan yaşlılar və çay süfrəsi arxasında söhbət edən yerlilər tamam başqa Pekinin ab-havasını yaradır.

İnsanlar alış-veriş, ödəniş və digər gündəlik əməliyyatları mobil telefon vasitəsilə həyata keçirirlər. Bu ölkədə texnologiyalar həyatın bütün sahələrinə nüfuz edib. Hotellərdə insanları robotlar əvəz etməyə başlayıb. Qaldığımız hotellərin birində sifariş olunan su və digər ərzağı otaqlara robotun aparması bizi nə qədər heyrətləndirir. Robotlar liftə minir, salamlaşır, lazımi mərtəbəyə qalxır, qapının qarşısında dayanaraq telefona zəng edir, sifarişin çatdırıldığını bildirir və yenidən öz yerlərinə qayıdırlar. Bir neçə il əvvəl fantastik görünən bu mənzərə artıq Çində adi həyatın bir hissəsinə çevrilib.

Texnologiyanın gündəlik həyata nə qədər nüfuz etdiyini göstərən başqa bir mənzərə isə izdihamlı küçələrdə qarşımıza çıxır: nağd pulun istifadəsinin minimuma endiyi ölkədə hətta dilənçilər belə boyunlarından asdığı QR-kodları uzadır, yardım etmək istəyənlər ödənişi “Alipay”lə həyata keçirirlər.

Çində insanı təəccübləndirən başqa bir məqam dil baryeridir. Ölkədə ingilis dilini bilənlərin sayı azdır. Bəzən sadə bir ünvanı soruşmaq belə çətinləşir. Belə hallarda işarə dili və tərcümə proqramları köməyə gəlir. Çinlilər ümumiyyətlə, turistlərlə uzun söhbətlər etməyə meyilli deyillər. Hər kəs öz işi ilə məşğuldur, çalışqan olduqlarından daim tələsirlər. Zəhmət vərdişi və məsuliyyət onlara ta məktəbdən aşılanır.



**“BURA GƏLƏCƏYİN ÖLKƏSİDİR”**

Çinlə Azərbaycan arasında tələbə mübadiləsi ildən-ilə genişlənir. Pekin, Şanxay və digər böyük şəhərlərin ali məktəblərində azərbaycanlı tələbələr təhsil alırlar. Ölkədəki keyfiyyətli təhsil, təqaüd və karyera imkanları gəncləri cəlb edir. Təsadüfən orta təhsilin son pillələrini Pekin Beynəlxalq Məktəbində alan gənclərlə tanışlığımız ölkədəki təhsilin özəlliyi haqqında məlumat qazandırdı: “Çin universitetləri xüsusilə texnologiya, mühəndislik və tibb sahəsində güclüdür. Praktiki bilik və müasir laboratoriyalar var. Çin hökuməti çoxlu tam və yarım təqaüdlər verir. Təhsil, yataqxana, bəzən aylıq xərclər belə qarşılanır. Çin dünyada ən çox təhsil təqaüdü verən ölkələrdəndir. Biz orta məktəbdən sonra ali təhsili də burada almaq, iş imkanlarından istifadə etmək niyyətindəyik. Bura gələcəyin ölkəsidir”.

**MƏHSUL UCUZ, SEÇİM ÇOX...**

Çin istehsal ölkəsidir. Azərbaycanlı ticarətçilərin illərdir kütləvi ticarət üçün üz tutduqları ölkəyə axın son vaxtlar daha da artıb. Bizimkilər daha çox xırda məhsulların ən böyük bazarı olan Yivu, geyim və topdan satış malları ilə məşhur olan Guangzhou, elektronika və texnologiya şəhəri olan Shenzhenə gedirlər.

Pekində olarkən yaddaşımda qalan ən güclü təssürat isə budur: burada keçmişlə gələcək eyni şəhərdə və eyni həyatın içində yanaşı yaşayır...

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
4 İYUL ŞƏNBƏ 2026
www.kaspi.az

“UFC Fight Night Baku 2026” bir daha sübut etdi ki, Azərbaycan dünyanın ən nüfuzlu döyüş təşkilatlarından biri üçün etibarlı tərəfdaşdır. Belə turnirlər ölkənin idman turizminə, beynəlxalq tanıtımına və iqtisadiyyatına böyük töhfə verir.

# REKORDLAR, SENSASİYALAR UNUDULMAZ ANLAR

Bir il əvvəl UFC ilk dəfə Bakıya gələndə Azərbaycan dünyanın ən nüfuzlu MMA təşkilatının etimadını doğrulda biləcəyinə şübhə yox idi. “UFC Fight Night Baku 2026” göstərdi ki, Bakı bu cür mötəbər turnirləri yüksək səviyyədə təşkil edən şəhərlər sırasında öz yerini möhkəmləndirir. İyunun 27-də Milli Gimnastika Arenasında keçirilən tədbir həm döyüşlərin səviyyəsi, həm də qüsursuz təşkilatçılığı ilə yadda qaldı. Minlərlə azarkeş tribunaları doldurdu, milyonlarla tamaşaçı isə qarşılaşmaları televiziya və rəqəmsal platformalar vasitəsilə izlədi.

**ADRENALİN DOLU 13 QARŞILAŞMA**

Turnirin proqramına 13 döyüş daxil edilmişdi. Onlardan yeddisi ilkin, altısı isə əsas kart çərçivəsində baş tutdu. Gecə ilk saniyələrdən yüksək temp və gərgin mübarizə ilə yadda qaldı. Qarşılaşmaların böyük hissəsi hakimlərin qərarına qədər uzanmadı.

Əsas kart xüsusilə diqqət çəkirdi. Burada həm reytinq uğrunda mübarizə aparan təcrübəli döyüşçülər, həm də UFC-də adından söz etdirməyə çalışan yeni simalar qüvvələrini sınayırdılar. Gecənin sonunda “gecənin performansı” bonusları Rafael Fiziyev, Asu Almabayev, Abdul-Rahman Yaxyayev və Mateus Kamilyoya təqdim olundu.



**Fotolar:** Tapdıq Abdullayev / Global Photostock

## Fiziyev doğma meydanda sözünü dedi

Azərbaycanlı azarkeşlər xüsusilə Rafael Fiziyevlə meksikalı Manuel Torres arasındakı qarşılaşmanı səbirsizliklə gözləyirdilər. Ümumiyyətlə, bu, gecənin əsas döyüşü idi. Son illərdə zədələr və elit rəqiblərlə çətin sınaqlardan keçən Fiziyev üçün bu döyüş idman tərəfi ilə yanaşı, psixoloji olaraq da böyük əhəmiyyət daşıyırdı. O, yenidən özünün ən güclülərdən biri olduğunu sübut etməli idi.

İlk raundda hər iki döyüşçü ehtiyatlı davransa da, Rafael tədricən üstünlüyü ələ keçirdi. İdmançımız məsafəni dəqiq qoruyur, ayaqlarına endirdiyi dəqiq zərbələrlə rəqibinin hərəkətlərini məhdudlaşdırır və döyüşün tempinə nəzarət edirdi. Manuel Torres ara-sıra təhlükəli hücumlara cəhd etsə də, çox yaxşı hazırlaşdığı görünən Fiziyev üçün bunlardan yayınmaq çətin olmurdu.

Həlledici məqam isə ikinci raundun lap əvvəlində yaşandı. Cəmi 15 saniyə keçmiş möhtəşəm “spinning heel kick” (fırlanaraq endirilən daban zərbəsi) Manuel Torresi sarsıtdı, ardınca Rafaelin endirdiyi ardıcıl və dəqiq yumruqlar referini döyüşü dayandırmağa məcbur etdi. Fiziyev bu qələbə ilə UFC-nin yüngül çəki dərəcəsində yenidən iddialı döyüşçülər sırasında olduğunu nümayiş etdirdi.

## Fərman Həsənovdan debüt döyüşündə rekord

Azərbaycan MMA-sının yeni simalarından olan Fərman Həsənov UFC-də debütünü inamlı qələbə ilə qeyd etdi. Erik Nolanla qarşılaşan Həsənov döyüş planını uğurla həyata keçirərək üstünlüyü əsasən güləş hesabına qazandı. O, rəqibini dəfələrlə yerə endirdi, nəzarəti əldən vermədi və üç raund boyunca təşəbbüsü öz əlində saxladı.

Hakimlərin yekdil qərarı ilə qalib gələn Həsənov bununla kifayətlənmədi. O, qarşılaşmada 17 dəfə uğurlu şəkildə rəqibini yerə yıxaraq (“tackle-down”) UFC-nin yarımorta çəki rekordunu təkrarladı. Debüt döyüşündə belə göstərici nümayiş etdirmək təşkilat rəhbərliyinin və MMA mütəxəssislərinin diqqətini cəlb etdi.

**TAHİR ABDULLAYEV QALİB GƏLDİ**

Tahir Abdullayev braziliyalı Cefferson Nasçimento ilə qarşılaşmada qələbə qazansa da, bu döyüş gecənin ən çox müzakirə olunan hadisələrindən birinə çevrildi. Azərbaycanlı döyüşçü ikinci raundda rəqibinə ciddi təzyiq göstərərək ardıcıl zərbələr endirdi və referi texniki nokaut qərarı verdi. Bununla belə, bir sıra MMA ekspertləri döyüşün bir qədər tez dayandırıldığı qənaətindədirlər. Lakin texniki nokaut qərarı həmin anda verilməsə belə, Abdullayev rəqibi üzərində böyük üstünlük qazanmışdı.

Bu, Abdullayev üçün UFC-də çox vacib qələbədir. Onun fiziki hazırlığı, yüksək təzyiq altında işləmə bacarığı və fasiləsiz irəli hərəkəti bu döyüşdə əsas üstünlükləri kimi nəzərə çarpırdı.

## Nazim Sadıxov üçün uğursuz gecə

Azərbaycan təmsilçiləri arasında yeganə məğlubiyyət Nazim Sadıxovun adına yazıldı. O, braziliyalı Mateus Kamilyoya qarşı döyüş ritmini tapa bilmədi və ilk raundda texniki nokautla məğlub oldu. Lakin burada da hakimin qərarı müzakirələrə səbəb oldu. Kamilyonun zərbəsindən sonra Nazim yerə yıxılsa da, təslim olmamışdı, o, müdafiəni qurmuşdu və qaydalara uyğun olaraq müqavimət göstərməyi bacarırdı. Nazim özü də qərara etiraz etdi, lakin bunun heç bir faydası olmadı.

Bu nəticə, şübhəsiz, həm idmançının özü, həm də azarkeşlər üçün məyusedici idi. Lakin UFC kimi dünyanın ən rəqabətli təşkilatında belə məğlubiyyətlər karyeranın sonu deyil.

**QAZANCIMIZ TƏKCƏ QƏLƏBƏLƏR DEYİL**

“UFC Fight Night Baku 2026” bir daha sübut etdi ki, Azərbaycan dünyanın ən nüfuzlu döyüş təşkilatlarından biri üçün etibarlı tərəfdaşdır. Belə turnirlər ölkənin idman turizminə, beynəlxalq tanıtımına və iqtisadiyyatına böyük töhfə verir. Xaricdən gələn azarkeşlər, media nümayəndələri və idman ictimaiyyəti Azərbaycanın müasir idman infrastrukturu ilə yaxından tanış olmaq imkanı əldə edirlər.

UFC-nin Bakıda keçirilməsi yerli MMA-nın inkişafına da ciddi təkan verir. Minlərlə yeniyetmə Rafael Fiziyev, Fərman Həsənov, Tahir Abdullayev və Nazim Sadıxov kimi idmançıları canlı izləyərək bu idman növünə daha böyük maraq göstərir.